Təhsil, əyləncə, dostluq əlaqələri, işgüzar əlaqələr bu şəbəkələrin təhlükəsizliyinin qorunmasına zərurət yaradır. Belə ki, elm və texnikanın inkişafı şəbəkələrin yenilənməsinə, istifadə edilən texnologiyaların modernləşdirilməsinə, çoxsaylı və müasir tələbata uyğun növlərinin yaradılmasına səbəb olur. Nəticədə WiFi şəbəkələrinin funksionallığının artması, istifadəçilərinin sayının çoxalmağı, iri və kiçik şirkət rəhbərləri, eyni zamanda adi insanları daha ucuz və sərfəli olan yeni xidmətlərdən istifadə etməyə vadar edir. Beləliklə, bütün konfidensial materiallar, gizli fayl və elektron sənəd dövriyyəsi haqda informasiyaların saxlanması, ötürülməsi və qəbul edilməsi WiFi şəbəkələrinin köməyi ilə həyata keçirilir. Aydın məsələdir ki, bu zaman şəxsi məlumatların kənara sızma riski də artır, gizli məlumatların əldə edilməsi məqsədi ilə onlara edilən təcavüzkar hücumların sayı artır. Ona görə simsiz şəbəkələrə inam azalır, insanlarda təhlükəsizlik qorxusu artır. [6].

Şəbəkələr dələduz və hakerlərin hədəfinə çevrilir. Həvəskar proqramcılar özlərini təsdiq etmək və ya əyləncə üçün, peşəkarlar müxtəlif kontenti şəbəkəyə ötürmək üçün, cinayətkarlar isə şəxsi informasiyanın əldə edilərək satılması və ya konkurentlərə ötürülməsi üçün şəbəkələrə hücum edir.

Beləliklə, informasiyaların sızması, daxili və xarici haker hücumların artması, şifirləmə, IPv6 hücumları, bulud hesablamaları və sosial şəbəkə hücumlarının genişlənməsi ilə əlaqədar şəbəkələrin qorunması, təhlükəsizliyinin təmin ediləsi, işinin keyfiyyətinə nəzarət edilməsi vacib məsələlərdən biridir. Belə ki, onların təhlükəsizliyi təmin edilməzsə İnternetə giriş sürətinin azalması, fərdi məlumatların bədniyyətlilər tərəfindən ələ keçirilməsi və ya ən qorxulusu internet şəbəkəsindən istifadə edərək kibercinayətkarlıq hadisəsinin törədilməsi kimi təhlükəli və xoşagəlməz hallar yarana bilər [7,8].

Bütün bunların qarşısını almaq üçün mütəmadi olaraq WiFi şəbəkələrinin monitorinqləri aparmalı və məxfiliyi qorumaq üçün avtorizasiya və autentifikasiya təmin edilməlidir. Həmçinin şəbəkələrin təhlükəsizliyini qorumaq üçün təhlükəsizlik protokolları yaradılır, elm və texnikanın inkişafı sayəsində daim yenilənir. Bu yenilənmələr nəticəsində WiFi protokolları, WiFi Alliance tərəfindən WPA nəsli kimi bilinən - WPA, WPA2 və WPA3 olmaqla 3 növdə təkmilləşdirilmişdir.

Protokolların simsiz şəbəkələr üçün təmin etdiyi əsas şəbəkə təhlükəsizlik xidmətləri: məxfilik, məlumatların bütövlüyü və identifikasiyadır.

Nəticə. Elm və texnikanın inkişafı insan həyatında çox böyük rol oynayır. Son zamanlar təhsilin daha

da maraqlı və informativ kemirilməsi, ağır cərrahi əməliyyatların, açıq kosmosda yerinə yetirilən

təhlükəli operasiyaların və digər monipulyasiyaların müsbət nəticəsi üçün virtual reallıqda yaradılan

proqramların, asan istismar edilən mürəkkəb detal və hissələrin alınması üçün 3D çapın və onun daha da təkmilləşdirilmiş forması olan 4D çapın, monipulyatorlar, yeni maşın və dəzgahların layihələndirilməsi və istehsalı nəticəsində əl əməyi azalmış, insanların işi asanlaşmış və sürətlənmişdir. Bütün bu proseslərin keyfiyyətli və sürətli dərəcədə yerinə yetirilməsi üçün isə WiFi texnologiyalarının əhəmiyyəti dərəcədə rolu var [9,10].

Göründüyü kimi, simsiz şəbəkələrsiz müasir dövrdə çox az şəhər, kənd və evləri təsəvvür etmək olur. Artıq WiFi bizim gündəlik həyatımızda istifadə etdiyimiz əsas texnologiyalardandır. Bu texnologiyaların köməyi ilə komputer, mobil telefon, planşet və digər cihazların şəbəkəyə birləşdirilməsi və ya internetə qoşulması asanlaşıb. Bunun üçün artıq naqillər lazım olmur. Bu texnologiya vasitəsilə istifadəçi kiçik ərazi daxilində və ya uzaq məsafələrlə əlaqə saxlamaq, bütün dünyada sərbəst hərəkət etmək imkanı əldə edib. Eyni zamanda, eyni vaxt ərzində bir şəbəkədən onlarla istifadəçi istifadə edə bilir.

Lakin bütün üstün cəhətlərinə baxmayaraq bu şəbəkələrin zəif cəhətləri bizi onun təhlükəsizliyinin qorunmasına daha çox fikir verməyə məcbur edir. Belə ki, açıq WiFi şəbəkələrinə qoşulmaq çox təhlükəli hesab edilir. Çünki bu şəbəkəyə qoşulan digər istifadəçilərin qoşulma məqsədləri bilinmir. İctimai WiFi şəbəkələri sındırılmağa ən həssas olan şəbəkələrdir.

Ona görə hal-hazırda, şəbəkələrin qorunması vacib məsələrdən birinə çevrilib. Mütəmadi olaraq aktiv və passiv şəkildə aparılan monitorinqlər, təhlükəsizlik protokollarının yenilənməsi, yeni təhlükəsizlik proqram təminatlarının yaradılması yeni-yeni təcavüzkar planlar hazırlayan "ixtiraçı" hakerlərə, həvəskar və peşəkar proqramçılara və cinayətkarlara özlərini təsdiq etmək, müxtəlif kontenti şəbəkəyə ötürmək, şəxsi informasiyanı əldə etmək kimi çirkin əməllərinə qarşı aparılan mübarizə üsullarıdır.

Bunlarla bərabər WiFi şəbəkələrinin qorunması istiqamətində yeni proqram təminatlarının yaranması, layihələndirilmələrinin daha mükəmməl, dəqiq aparılması, planlaşdırılmasının aparılan monitorinqlərin nəticələrini nəzərə alaraq yerinə yetirilməsi daha sürətli, keyfiyyətli və təhlükəsiz - İnamlı şəbəkələrin yaranmasına yol açır.

ƏDƏBİYYAT SİYAHISI:

1. А. Б. Бакытов, Я. А. Ратахин, Ж. К Ташенова. Технология широкополосного беспроводного доступа // Актуальные вопросы технических наук: материалы III Междунар. науч. конф. (г. Пермь, апрель 2015 г.). — Пермь: Зебра, 2015. — С. 41-43.

2. Гейер, Д. Беспроводные сети. Первый шаг: Пер. с англ. — М.: Издательский дом «Вильяме», 2005. — 192 с.: ил. — Парал. тит. Англ

3. Önder Şahinaslan, "Kablosuz Ağlarda Bilgi Güvenliği ve Farkındalık" Istanbul https://onedio.com/haber/gozle-gorulmeyen-tehlike-kablosuz-aglarin-vucudumuza-verdigi-zararlari-gorunce-sok-olacaksiniz-854523

4. Rustamova D., Firdus E., Aliyev V., WI-FI NETWORKS. CYBER SECURITY MONITORING SYSTEM,JournalofPharmaceuticalNegativeResults¦Volume14¦Regular Issue02; 2023, https://www.pnrjournal.com/index.php/home/article/view/7393

5. Проблемы безопасности в беспроводных сетях (citforum.ru)

6. Müasir şəbəkə təhlükəsizliyi və inam problemləri, Ramiz Şıxəliyev, İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri", IV respublika konfransı, 14 dekabr 2018-ci il,AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan

7. Diqqət! "Wi-Fi" şəbəkənizin təhlükəsizliyini qoruyun! - Elektron Təhlükəsizlik Xidməti (cert.az)

8. WiFi təhlükəsizliyi qaydaları - Elektron Təhlükəsizlik Xidməti (cert.az)

9. Firdus E.F, Rustamova D.F., Aliyev V.K.Virtual Reality In Training Impact On Students Of Educational Programs In Augmented Reality, JournalofPharmaceuticalNegative Results¦ Volume14¦SpecialIssue2¦2023 https://www.pnrjournal.com/index.php/home/article/view/6536

MƏMMƏDZADƏ Elvin Cəsarət oğlu
Qərbi Kaspi Universiteti,Tətbiqi proqram təminatı ixtisası üzrə II kurs magistri
E-mail: elvinmammadzade42@gmail.com

PROQRAM TƏMİNATININ İNKİŞAF ETDİRİLMƏSİ METODLARI VƏ ONLARIN ÇATIŞMAYAN CƏHƏTLƏRİ

İnformasiya sistemlərinin yaradılması və zamanla təkmilləşdirilməsi fəaliyyətin əsasında informasiya sistemlərinin inkişaf etdirilməsinin həyat dövrülüyü anlayışı durur. İnformasiya sistemlərinin yaradılması haqqında qərarların qəbul edilməsi anından informasiya sistemlərinin fəaliyyətinin sonlandırılması anınadək baş verən mərhələlərə informasiya sistemlərinin həyat dövrü deyilir. İnformasiya sistemlərinin inkişaf etdirilməsinin həyat dövrülüyü üçün nəzərdə tutulmuş müxtəlif yanaşmalar vardır ki onların içərisində ən çox istifadə olunan nümunələr aşağıda qeyd olunub:

- "Waterfall" metodu: Bu üsul SDLC metodologiyasına əsaslanır və tələblərin toplanması, planlaşdırılması, təhlili, dizaynı, inkişafı, sınaqdan keçirilməsi və texniki xidmətin ardıcıl prosesini əhatə edir.
- "Agile" metodologiyası: Bu üsul qısa inkişaf dövrlərinə, davamlı əks əlaqəyə və təkrar təkmilləşdirməyə diqqət yetirməklə sürtəli inkişaf etdirməni hədəfləyir.
- "Scrum" metodologiyası: Bu, komanda işini, əməkdaşlığı və sürətli prototiplərin hazırlanmasını hədəfləyən məşhur metodologiyadır. Bu, "sprintlər" adlanan qısa inkişaf dövrlərini və "scrums" kimi tanınan müntəzəm görüşləri əhatə edir.
- "DevOps": Bu üsul proqram təminatının inkişafının sürətini və keyfiyyətini yaxşılaşdırmaq üçün inkişaf və əməliyyat qruplarının inteqrasiyasına yönəlib. O, davamlı inteqrasiya və çatdırılma, avtomatlaşdırılmış sınaq və sürətli quraşdırmanı hədəfləyib.
- "Lean" metodologiyası: Bu üsul arıq istehsal prinsiplərindən ilhamlanıb və israfı aradan qaldırmaq və səmərəliliyi maksimuma çatdırmaq üçün proseslərin sadələşdirilməsini nəzərdə tutur.
- Sürətli Tətbiq İnkişafı (RAD) metodu: Bu üsul istifadəçi rəyinə və proses boyunca iştirakına diqqət yetirməklə, sürətli inkişaf və prototipləşdirməni vurğulayır.
- "Spiral" metodologiyası: Bu üsul hər biri planlaşdırma, risklərin qiymətləndirilməsi, inkişaf və sınaqdan ibarət bir sıra iterativ dövrləri əhatə edir.

Hər bir metodun öz güclü və zəif tərəfləri var və metodun seçimi layihənin və inkişaf qrupunun xüsusi ehtiyaclarından və məqsədlərindən asılıdır.

Sadalanmış üsulların bir-birindən kəskin fərqlənən cəhətləri olsada, onların əksəriyyətində rast gəlinən müxtəlif çatışmazlıqların, çətinlikərin olduğu ortaq cəhətləri də var. Proqram təminatının hazırlanmasında bu gün sənaye üçün aktual olan bir neçə aktual problem var:

- Kibertəhlükəsizlik: Dünya getdikcə rəqəmsallaşdıqca kibertəhlükəsizliyin əhəmiyyəti artmaqda davam edir. Proqram təminatının hazırlanması üzrə komandalar təhlükəsizliyi ön plana çəkməli və tətbiqlərinin kiber təhlükələrdən qorunmasını təmin etməlidir.
- Keyfiyyət Təminatı: Proqram təminatının keyfiyyətinin təmin edilməsi kritik məsələdir, çünki proqram səhvləri və səhvləri istifadəçilər üçün əhəmiyyətli problemlər yarada bilər. Proqram təminatı inkişaf komandaları qüsurları aşkar etmək və proqram təminatının düzgün işləməsini təmin etmək üçün effektiv sınaq strategiyaları qəbul etməlidirlər.
- Layihənin idarə edilməsi: Proqram təminatının inkişafı layihələrinin idarə edilməsi, xüsusən də layihələr daha mürəkkəbləşdikcə və daha böyük komandaları cəlb etdikcə çətin ola bilər. Layihələrin

vaxtında və büdcə daxilində çatdırılmasını təmin etmək üçün effektiv layihə idarəetmə təcrübələrinə və alətlərinə malik olmaq vacibdir.

- Miqyaslandırlma: Proqram təminatı istifadəçilərin artan tələblərinə cavab vermək üçün miqyaslana bilən olmalıdır. Daha çox insan proqramlardan istifadə etdikcə, tətbiqin artan trafik və yükü idarə edə bilməsini təmin etmək çox vacibdir.
- Sürətli Dəyişiklik: Proqram təminatının inkişaf etdirilməsi sənayesi daim inkişaf edir, yeni texnologiyalar, çərçivələr və metodologiyalar hər zaman ortaya çıxır. Proqram tərtibatçıları rəqabətə davamlı qalmaq üçün ən son tendensiyalar və yeniliklərdən xəbərdar olmalıdırlar.
- Müxtəliflik və İnklüzivlik: Müxtəlif və inklüziv proqram təminatı inkişaf komandalarının yaradılması sənaye üçün vacib məsələdir. Müxtəlifliyin olmaması yaradıcılıq və innovasiya qıtlığına, eləcə də etik problemlərə səbəb ola bilər. Proqram təminatı hazırlama komandalarının müxtəlif və əhatəli olmasını təmin etmək daha yaxşı proqram təminatı yaratmağa və daha ədalətli sənayeyə töhfə verə bilər.

Bunlar proqram təminatının inkişaf etdirilməsi komandalarının bu gün üzləşdiyi çətinliklərin bir qismidir. Bu problemlərin həlli texniki bacarıqların, əməkdaşlıq və davamlı təkmilləşdirmə öhdəliyinin birləşməsini tələb edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ramazanov M.K. - "İnformasiya sistemləri menecmenti", Dərslik, Bakı, 2017.
2. Zelkowitz -M. Advances in Computers: Advances in Software Engineering, 2004.
3. Kim H. Pries, Jon M. Quigley - Scrum Project Management, 2010.
4. What is Lean? – https://lean.org/explore-lean/what-is-lean/

MƏMMƏDZADƏ Elvin Cəsarət oğlu
Qərbi Kaspi Universiteti,Tətbiqi proqram təminatı ixtisası üzrə II kurs magistri
E-mail: elvinmammadzade42@gmail.com

VEB TƏTBİQLƏR VƏ ONLARIN HAZAIRLANMASINDA İSTİFADƏ OLUNAN TEXNOLOGİYALAR

Veb proqramlar veb serverlərdə işləyən və veb brauzerlər vasitəsilə istifadəsi mümükün olan proqramlardır.Veb tətbiqlərinin ən mühüm xüsusiyyətlərindən biri onların müxtəlif cihazlarda və platformalarda işləyə bilən sadə və asan istifadə edilə bilən tətbiqlər olmasıdır. Onlar istifadəçilərə tapşırıqları yerinə yetirməyə, verilənlərlə ilə işləməyə və internet üzərindən müxtəlif məzmuna daxil olmağa imkan verən tətbiqlərdir.Veb tətbiqlərin əhatə dairəsi çox genişdir, məsələn, sosial şəbəkələr, elektron ticarət, müxtəlif xidmətlər, ERP sistemlər və s. Hətta bir çox mobil və ya digər tətbiqi proqramlarında əsas funksional hissələri veb tətbiqlərin köməyi ilə işləyir.

Bəzi populyar veb tətbiq növlərinə aşağıdakılar daxildir:

- Məzmun İdarəetmə Sistemləri (CMS): Bu proqramlar veb sayt sahiblərinə blog yazıları, səhifələr və şəkillər kimi vebsayt məzmununu yaratmağa və idarə etməyə imkan verir. CMS-lərə misal olaraq WordPress, Drupal və Joomla-nı sadalamaq olar.
- E-ticarət Proqramları: Bu proqramlar müəssisələrə məhsul və xidmətləri onlayn satmağa imkan verir. Məsələn: Shopify, Magento vooCommerce.
- Sosial Media Platformaları: Bu proqramlar istifadəçilərə profillər yaratmağa, məzmun paylaşmağa və başqaları ilə onlayn əlaqə saxlamağa imkan verir. Nümunələrə Facebook, Twitter və Instagram daxildir.
- Ünsiyyət və Əməkdaşlıq Alətləri: Bu proqramlar istifadəçilərə onlayn olaraq başqaları ilə əlaqə saxlamağa və əməkdaşlıq etməyə imkan verir. Nümunə: Slack,Microsoft Teams, Zoom, Trello.

Veb tətbiqlərin yaradılması, hazırlanması və idarə edilməsi üçün müxtəlif texnologiyalar, proqramlaşdırma dilləri və platformalar istifadə edilir. Veb tətbiqlərinin hazırlanmasında bir çox

proqramlaşdırma dilləri istifadə edilə bilər və bu tətbiqin quruluşuna və məqsədindən aslı olaraq dəyişə bilər. Ən məşhur veb tətbiqləri texnologiyaları arasında HTML, CSS, JavaScript, Python, PHP, Ruby, Java, C# kimi dillər yer tutur:

- HTML və CSS: Bu iki texnologiya, veb səhifələrinin interfeysini yaradmaq üçün əsas texnologiyalardandır. HTML səhifə strukturu, veb səhifələrinin hazırlanması üçün əsas texnologiyadır. Bu dildə səhifələrin mətni, linkləri, şəkilləri, videoları və audio fayllarını düzgün şəkildə göstərmək üçün lazım olan kodlardan istifadə edilir.
- CSS isə səhifə dizaynını təyin etmək üçün istifadə edilir. CSS ilə HTML kodlarının görünüşünü tənzimləmək mümkündür. Bu texnologiya, səhifələrə görünən və gizlədilmiş elementlərə, şrift ölçüsü, rəng, və s. kimi müxtəlif xüsusiyyətləri təyin etmək üçün istifadə olunur.
- JavaScript: JavaScript, veb tətbiqlərin dinamik şəkildə işləyə bilməsi üçün ən çox istifadə olunan proqramlaşdırma dilidir. Bu dil, istifadəçilərin təcrübəsini yaxşılaşdırmaq, animasiyaları və interaktiv funksiyaları əlavə etmək üçün istifadə olunur.
- Server tərəfli texnologiyalar: Server tərəfli texnologiyalar, veb tətbiqlərinin arxa ucunda(back-end) gedən funksiyaları icra etmək üçün istifadə edilir. Bu texnologiyaların ən məşhurlarına Java,C#,PHP, Ruby, Python və Node.js-i aid etmək olar.
- Verilənlər bazası texnologiyaları: Veb tətbiqləri əksər hallarda verilənlər bazasına sahib olur. Verilənlər bazası istifadəçilərin məlumatlarını saxlamaq, məlumatların dəyişdirilməsini və yenilənməsini idarə etmək üçün istifadə edilən texnologiyalardır. Məşhur verilənlər bazası texnologiyaları MySQL, PostgreSQL və MongoDB-dir.
- Framework-lər: Framework-lər, veb tətbiqlərinin hazırlanmasında istifadə edilən, təkrarlanan işlərin və funksiyaların avtomatlaşdırılması üçün bir neçə modullaşdırılmış texnologiyalardır. Çox sayda framework-lər mövcuddur və onlar arasında məşhur olan framework-lərə nümünə olaraq ASP.NET, Laravel, Django, Ruby on Rails , Angular-ı sadalamaq olar.

Veb tətbiqlərin hazırlanması çoxlu mərhələlərdən keçir və bu prosesin sürətli şəkildə aparılması və keyfiyyətli formada son məhsulun yaradılması üçün qabaqcadan planlaşdırılmalıdır. Əsas mərhələləri aşağıdakı kimi ifadə edə bilərik:

- Layihənin tərtibi: Veb tətbiqi hazırlamaq üçün ilk addım, proyektin məqsədini, funksiyalarını, hədəflərini və köməkçi funksiyaları qərarlaşdırmaq üçün bir plan hazırlamaqdır. Bu plan əsas funksiyalar, interfeys elementləri və istifadəçi təcrübəsi kimi mühüm məsələləri əhatə edir.
- Front-end hazırlığı: Front-end hissəsi veb tətbiqinin istifadəçi interfeysinin yaradılması ilə məşğul olur. Burada, istifadəçilərin təcrübələrini yaxşılaşdırmaq üçün rənglər, fontlar, mövqelər və hissələrə dair dizayn quruluşları hazırlanır.
- Back-end hazırlığı: Back-end hissəsi, veb tətbiqinin funksiyalarını və daxili iş proseslərini həyata keçirir.
- Testlər və təhlil: Bu mərhələ hazırlanan veb tətbiqinin yoxlanılması və təhlili mərhələsidir. Bu mərhələdə proyektin bərpa edilməsi və optimal olaraq işləməsi üçün dəyişikliklər edilə bilər.
- Buraxılış: Bu mərhələ tətbiqin işə salınması mərhələsidir. Bu mərhələdə tətbiq veb serverlərində quraşdırılır və istifadəçilər tərəfindən əldə edilə bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Web Technologies - A Computer Science Perspective - J. Jackson (Pearson, 2007)
2. Content management system - https://en.wikipedia.org/wiki/Content_management_system
3. Principles of Web Design: The Web Technologies Series – J.Sklar (5-nth edition)

ALLAHVERDİ Biyakir oğlu Həsənov
ARETN İdarəetmə Sistemləri İnstitutu

HƏSƏNOVA Türkan Natiq qızı
ARETN İnformasiya Texnologiyaları İnstitutu
E-mail: hesenli_ab@mail.ru

AZƏRBAYCAN RESPUBLIKASININ ŞİRİN SU EHTİYATLARINDAN SƏMƏRƏLİ VƏ İNTEQRASİYALI İSTİFADƏ EDİLMƏSİ ÜÇÜN RİYAZİ MODELLƏRİN VƏ İNTELLEKTUAL EKSPERT-İDARƏETMƏ SİSTEMLƏRİNİN YARADILMASI

Abstract

Taking into account management problems and new realities in water management, distribution of fresh water resources is one of the important issues to be solved in the region. Here, it is important to consider the interests of each of the parties, conduct negotiations and find compromise solutions. To analyze the above-mentioned problems, to understand their essence and to find compromise solutions, it is important to create four-system mathematical tools and mathematical models developed on this basis. Mathematical apparatus and tools using computer technologies to make coordinated decisions on the problem and efficient use of resources in water basins are already being created in many countries.

Keywords: su problemi, inteqrasiyalı istifadə, riyazi model.

Giriş

Müasir şəraitdə su problemi ölkələrin davamlı inkişafına təsir edən əsas amillərdən biridir. Su probleminin kəskinləşməsi əhalinin ərzaq təminatına və regionların ekoloji təhlükəsizliyinə birbaşa təsir göstərir. Gələcəkdə su təminatını yaxşılaşdırmaq üçün yalnız sudan istifadəni azaltmaq, ondan qənaətlə istifadə etmək kifayət deyil və su ehtiyatlarının artırılması və inteqrasiyalı istifadəsi istiqamətində tədqiqatlar və praktiki işlər sürətləndirilməlidir. Ona görə də sudan səmərəli istifadənin idarəçiliyi problemi dünyanın bir çox bölgələrində kəskin su qıtlığı səbəbindən xüsusi aktuallıq kəsb edir. Bir sıra beynəlxalq təşkilatların (məsələn, FAO - Birləşmiş Millətlər Təşkilatının Qida və Kənd Təsərrüfatı Təşkilatı) məlumatlarına görə 2030-cu ilə qədər dünya üzrə şirin suya tələbat 60% artacaqdır [1].

Dünya resurslarının 70%-i çay və qrunt suları - suvarma üçün, 20% - isə sənaye və digər ehtiyaclar üçün, 10% məişət ehtiyacları üçün istifadə olunmaqdadır. Önümüzdəki 25-30 ildə artım səbəbiylə əhalinin dünyanın şirin suyundan istifadəsi 70% olacaqdır. Mövcud iqlim dəyişiklərinə görə vəziyyət daha da pisləşəcək, daha intensiv təbii dəyişikliklər (quraqlıq və daşqınlar) olacaq. Yuxarıda göstərilənlərin hər birinin içərisində ayrı-ayrılıqda suyun .istifadəsi ilə bağlı problemlər ölkə və dövlətlər arasında münasibətlərin gərginləşməsinə səbəb olur. Eyni zamanda münaqişə vəziyyətlərinin yaranması istisna edilmir.

Ona görə də idarəetmə problemləri və yeni reallıqlar nəzərə alınmaqla şirin su ehtiyatlarının bölüşdürülməsi regionun həlli vacib məsələlərindən biridir. Burada tərəflərin hər birinin maraqlarının nəzərə alınması, danışıqların aparılması və kompromis həll variantlarının tapılması vacibdir. Yuxarıda göstərilən problemlərin təhlili, onların mahiyyətini başa düşmək və kompromis həllər tapmaq üçün vacib çərt sistemli riyazi vasitələrin yaradılması və bu əsasda işlənmiş riyazi modellərdir. Riyazi aparat və vasitələr kompüter texnologiyalarından istifadə edilkməsi problem üzrə razılaşdırılmış qərarlar qəbul etmək və su hövzələrində ehtiyatlardan səmərəli istifadə üçün bir çox dövlətlərdə artıq yaradılmaqdaqdır. Azərbaycan üçün Su Ehtiyatlarının İnteqrasiyalı İdarə Edilməsi üzrə Milli Fəaliyyət Planı hazırlanmışdır. Milli Fəaliyyət Planında 4 əsas problem müəyyən edilmişdir [1,2]:

Su ehtiyatlarından daha səmərəli istifadə olunması;
Su ehtiyatlarının mühafizəsi üçün iqlim dəyişmələrinə adaptasiya;
Su ekosistemlərinin mühafizəsi;
Suyun keyfiyyətinin yaxşılaşdırılması.

Əsas mətn

Şirin su həcminin təbii və antropogen faktorların təsiri altında azalması onlardan səmərəli istifadə və inteqrasiyalı idarə olunması günün actual məsələlərindən biridir. Ona görə də aşağıda təklif olunan məsələlərin həlli çox vacibdir. Bunun üçün operativ monitorinq, hesabat və proqnoz modellərinin yaradılması və aşağıdakı məsələlərin həlli çox vacibdir [1,2].

1. Yeraltı və yerüstü, təbii və süni su mənbələrinin bütün mümkün xassələrini nəzərə alan ehtimal-statistik xarakteristikalı dinamik monitorinq və proqnoz modellərinin yaradılması;
2. Qapalı və açıq rejimli su hövzələrinin dinamik riyazi modellər əsasında istismar rejiminin seçilməsi və idarə edilməsi üçün üsul və proqram ko9mplekslərinin yaradılması.
3. Əkinə yararlı suvarılan sahələrdə şoranlaşma və bataqlaşmanın qarşısının alınması, "TORPAQ" idarəetmə sisteminin tələblərinə uyğun rütubət-duz mübadiləsinin təmin olunması məqsədilə suvarma üsul və rejiminin seçilməsi, qrunt sularının səviyyəsinin idarə olunması və torpaq münbitliyinin bərpası modellərinin işlənilməsi.
4. Sel-daşqın, sürüşmə tipli təbii fəlakətlər zamanı torpağın münbit qatının yuyulması və formadəyişmə proseslərinin hesabat modellərinin və zərərli nəticələrin minimallaşdırılması alqoritmlərinin işlənməsi və tətbiqi.
5. Bitkiçilik məhsullarının becərilməsində su sərfinin kompüter modelləşdirilməsi və məhsuldarlığın idarə olunması.

Bu məqsədə nail olmaq üçün görüləcək işlər:

- Biliklər bazasının yaradılması.
- Modelləşdirmə.
- Ekspert sistemlərinin yaradılması.
- Tətbiqi proqram dəstinin yaradılması və tətbiqi.
- Nəzərə alınmalı əsas amillər:
- Dağ yamaclarında qar örtüyünün və buzlaqların əriməsi;
- çay mənbəyinə və hövzəsinə düçən yağış suları;
- çay, kanal və su anbarları səthindən suyun buxarlanması;
- torpağa hopan sular;
- suvarma və digər məqsədlər üçün istifadə olunan sular;
- qrunt sularının infiltrasüiyası.





Dağ çaylarında qar əriməsindən yarana biləcək sularin maksimal həddinin (bütün real təsirləri nəzərə almaqla) hesablanması metodunun işlənilməsi, ərinti və yağışlardan yaranan, çaylara qarışan suların (coğrafi amilləri, çoxillik hidrometeoroloji müşahidələrin nəticələrini və s. nəzərə almaqla) maksimal miqdarinin hesablanması, axının sürəti və turbulentlik əmsalı arasında funksional asılılığın tapılması nəzərdə tutulur.

Təklif olunan kompleksin strukturu və hesabat sxemi:

Su anbarlarının sayı: N_{si}, $(i=1,2,.....n)$

Su anbarlarının tutumu: $Q_i(t)$, $Q_{i\,\min} \le Q_i(t) \le Q_{i\,\max}$

Kanalların sayı: N_{ki}, $(i=1,2,.....n)$

Idarə edilən əsas parametrlər:

- Çayın müəyyən en kəsiyində su sərfinin miqdarı.
- İstənilən su hövzəsində suyun səviyyəsi və s. ola bilər.

Ən sadə variantda işçi sxem aşağıdakı kimi təklif edilə bilər [3].



Nəticə

Yuxarıda qeyd olunanlarla yanaşı bir sıra digər hidroloji problemlər də öz həllini gözləyir. Belə ki, su təsərrüfatı və ətraf mühitin mühafizəsi üzrə ehtiyacları ödəmək üçün zəruri olan bir çox hidroloji istiqamətlər hazırda Azərbaycanda inkişaf etdirilmir və ya zəif inkişaf etdirilir. Belə sahələrə

misal olaraq məcra proseslərini, gətirmələr axımını, hidroloji proseslərin riyazi və fiziki modelləşdirilməsini, sel hadisəsini, hidroloji proqnozları, iqlim dəyişmələrinin su ehtiyatlarına təsirini, eksperimental hidrologiyanı, çay mənsəbləri və onlarda baş verən hidroloji prosesləri və s. göstərmək olar. Hidroloji prosesləri riyazi modelləşdirmə müasir hidrologiyanın ən perspektivli isti-qamətlərindən biridir. Belə hesab olunur ki, gələcəkdə bütün hidroloji məsələləri müxtəlif riyazi modellərin istifadəsi ilə həll etmək mümkün olacaq. Beləliklə, su ehtiyatları məhdud olan və həm zamana görə, həmdə ərazi üzrə qeyri-bərabər paylanan Azərbaycanda bu ehtiyatlar təsərrüfat fəaliyyətinin təsiri və iqlim dəyişmələri şəraitində tədri-cən azalır və onların keyfiyyəti pisləşir. Bütün bun-lar, əsas vəzifələrindən biri su ehtiyatlarının tədqiqi olan hidrologiya elminin bu və digər əlaqəli sahə-lərinin inkişafına, o cümlədən hidrologiya ixtisası üzrə bütün səviyyələrdə kadr hazırlığına diqqətin artırılmasını zəruri edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Ələkbərov A.B. İmanov F.Ə. Azərbaycan su ehtiyatları: Problemlər, yanaşmalar, reallıqlar.// Su problemləri: Elm və texnologiyalar.№1, 2016, s.15-25.
2. R.M. Məmmədeov, F.Ə. İmanov.Azərbaycanda hidroloji tədqiqatların müasir vəziyyəti. // Coğrafiya və təbii resurslar. .№1(11), 2020, s.15-26.
3. A.B. Həsənov , Z.M. Əlizadə, S.S. Allahverdiyeva. Çaylarda sel və daşqın hadisələrinin riyazi modelləşdirilməsi və proqnozlaşdırılması. Bakı. "APOSTROF" MMC. 201

AŞİROV Zaur Paşa oğlu
Azərbaycan Texniki Universiteti,
E-mail: zaur.ashirov@aztu.edu.az

ANBARDA YÜKLƏRİN ÇEŞİDLƏMƏ PROSESİNİN AVTOMATLAŞDIRILMASI

Abstract

Automated devices with a special system are used to implement information functions in automated facilities. Automatic conveyor devices are used so that the loads are not changed. The purpose of the work is to design the automatic production system of the loads in the warehouses, at the same time, to adjust the speed and quality improvement of the electric motor pushers, to safely change the location of additional loads with the conveyor system, and to simplify and reliably manage the technological process.

Keywords: PLC, Control, Microwin

Texnoloji proseslərin avtomatlaşdırılması və mexanikləşdirilməsi – müasir texniki inkişafın əsas və ən öndə olan istiqamətlərindəndir. Texnoloji proseslərin avtomatlaşdırılmasının ilk addımı onun axın metodu sayılır ki, aparılacaq hərəkətlərin müəyyən ciddi ardıcıllığını tələb edir. Bunun üçün qurğuların və iş yerlərinin yerləşməsi ardıcıl olaraq texnoloji prosesə uyğun olmalıdır.

Avtomatlaşdırılmış proseslərdə informasiya funksiyalarının reallaşdırılması üçün xüsusi sistemli avtomatlaşdırılmış qurğulardan istifadə olunur. Təyinat sahəsindən asılı olaraq aşağıdakı sistemlər vardır: avtomatik nəzarət, texnoloji proseslərin avtomatik idarə edilməsi, avtomatik tənzimləmə, avtomatik optimallaşdırma. Müasir sistemlər 1980-ci illərdəkindən fərqli olaraq özünün sadəliyi, yığcam və rahatlığı ilə seçilir. Adətən avtomatik çeşidləmə sistemləri poçtların konveyer xətlərində, aeroportlarda, zavodlarda, dəmir yollarında, tullantıların emalı müəssisələrində və s. quraşdırılır. Sifarişlərə uyğun olaraq anbarlarda seçilmiş və konveyerə yerləşdirilmiş yüklərin işarələnməsinə uyğun olaraq saxlanma və göndərilmə meydançalarına çatdırılması üçün çeşidlənməsi aparılır. Müasir anbar komplekslərində yüklərin emal olunması üçün çeşidləmə metodundan geniş istifadə olunur. Praktikada bu əməliyyat daxili və xarici yüklərin emalında yüklərin müxtəlif kanallarla bölüşdürülməsi deməkdir [1,2]. Çeşidləmənin əsas məqsədi - yüklərin xüsusi prinsiplə qruplaşdırılmasından və ya şəraitə uyğun yığılmasından ibarətdir.

Məqsəd, tapşırığın təyinatı

Layihənin məqsədi avtomatik idarəetmə sistemlərinin köməyi ilə anbarda olan yüklərin çeşidlənməsi, ilə konveyer sistemi vasitəsilə yüklərin təhlükəsiz və etibarlı şəkildə yerini dəyişməsindən ibarətdir.

Çeşidləmə prosesi sadə görünüşdə aşağıdakı şəkildə göstərilmişdir. Konveyerə qoyulmuş yük kənar kanallar üzrə elə qoyulmalıdır ki, çatdırılması sifariş və marşrut üzrə baş versin [3]. Hər kanalın özünün nömrəsi və naqilsiz konveyeri olur, bu da üfüqə görə bucaq təşkil edir. Kanalın nömrəsi yükün üstünə yapışdırılmış şəkildə ştrix-kodla göstərilir. Skaner konveyer boyunca hərəkətdə olarkən rampın strix-kodunu oxuyur və onu çeşidləyici nəzarətçiyə ötürür.

Nəzarətçi öz növbəsində konkret kanalın toxundurucu mexanizminə komanda verir. Bu sistemlərdən qutu şəklində olan sifarişlərdə istifadə olunur, hansı ki, bu qutuları onu palletlərdən (böyük taralardan) çıxarırlar və ona ştrix-kod verib konveyerdə müəyyən kanalla hərəkət üçün start verirlər. Müştərilərə (dükanlara) çatdırmaq üçün bu qutuların özündə də çeşidlənmiş ədədlə olan sifarişlər ola bilər. Mexaniki olaraq çeşidləyicilər müxtəlif prinsiplər əsasında qurula bilər. Bu kəmər ötürücü mexanizmlər, sürətli güc itələyicilər (ZİP - çeşidləyicilər) şəklində ola bilər. Konkret qurğunun növünün seçilməsi məhsuldarlığın tələbinə uyğun olmalıdır. Bu növ qurğuların gücü adətən saatda 1200, 5500 və 9500 yük vahidə bərabər olur. Çeşidləyici kanalların sayı onlarladır.



Şəkil 1– Texnoloji sistemin sxemi

Layihə olunan mexatron sistemin tərkibinə (şəkil 1) əsas hissələr (bəndlər) və aqreqatlar: «skaner», təyinatı yükə sistem daxili ünvanın verilməsi, «K1.1» əsas hərəkət konveyeri, «K2.1» - elektriki materialın konveyeri; «K2.2» - dielektrik materialın konveyeri; «K2.3» - işıqlanmanı əks etdirən materialın konveyeri; «V1.1» - Yükün konveyerdəki lentin üzərində əsas hərəkətində birinci induktiv vericisi; «V1.2» - Yükün konveyerdəki lentin üzərində əsas hərəkətində ikinci tutum vericisi; «V1.3» - Yükün konveyerdəki lentin üzərində əsas hərəkətində üçüncü fotoelektrik işıqlanma vericisi [4]. Bundan başqa sistemdə her bir vericinin təhkim edildiyi «təkançılar» da vardır.

Çeşidləmənin avtomatik idarə edilməsinin funksional izahı

Avtomatlaşdırılmış anbar yüklərin dəqiq tələblərlə hazırlanması, gələcəkdə göndərilməsini və saxlanmasını özündə ehtiva edən yaxşı qurulmuş sistemdir. Ona görə də yüklərin hazırlanması prosesi əsas istiqamət hesab olunur. Anbara daxil olmuş yük standartlara uyğun olaraq qablaşdırılmalı və nişanlanmalıdır. (yüklər göndərildiyi yerdə qablaşdırılır və nişanlanır). Anbara daxil olan yük konveyer lentinin üzərinə qoyulur. Qəbul məntəqəsindən daxil olan yüklər çeşidləmə aparılmaq üçün anbarın müəyyən hissəsinə göndərilir [5]. Ötürücü itələyicilərin ardıcıl işləməsi nəticəsində konveyer lentinin üzərindəki yük vericilərin onları hiss etməsi nəticəsində anbardaxili zonanı keçməklə hərəkət edir. Sonra yüklər növbəti texnoloji prosesində emal üçün yeni mərhələyə göndərilir.

Baza element sisteminin texniki xarakteristikaları

Schneider Electic şirkətinin PMK Quantum bazası əsasında blok idarəetmə sistemi aşağıdakı bloklardan ibarətdir.

PMK-nın mərkəzi prosessor qurğusu 140CPU11302 tipli CPU-a malikdir. Çox mürəkkəb proseslər üçün Quantum sənaye məniqi kontrollerlərindən müvəffəqiyyətlə istifadə olunur. Proseslərin məhsuldarlığı bu tapşırıqların icrası üçün vaxt dövrünün optimallığını qorumaqla göstəricilərin daha geniş imkanlarını birləşdirməklə və diaqnostikası, yaddaşın yığcamlığına və həmçinin qorunub saxlanılmasına şərait yaradır.

Quantum özündə balanslaşdırılmış MP (mərkəzi prosessoru) birləşdirir ki, bu da məntiqi təlimat və üzən vergüllü təlimatlarla işləyən zaman maksimal məhsuldarlığa nail olmağa imkan verir.

PMK 5 dilli olması, standart versiya: LD, ST, FBD, SFC, IL; Çoxtapşırıqlı sistemin yüksək mərhələsi; Yaddaşın gücü 7 Mb, PCMCIA genişləndirilmiş platalar; Proseslərin idarəolunması ətrafında modullar üçün xüsusi forması, həmçinin konfort üzlənməsi, təhlükəsiz giriş/çıxış və partnyor modulların böyük kataloqların olması; Təhlükəsizlik prosessorları və giriş/çıxış modulları Tapşırığın Plug & Play yüksək məhsuldar həlli, LCD klavyaturadan lokal monitorinqlə isti-isti göstəricilərin ehtiyata verilməsi; Çoxlu yaradılmış portlar (port IBB, port ETHERNET TCP/IP vebserverlə, Modbus Plus və minimum 1 ardıcıl Modbus port) panelin qarşısında

Avtomatik çeşidləmə sistemlərində yüklərin konveyerdən konveyerə yerdəyişməsində hidravlik, elektropnevmatik, elektromexaniki təkan verənlərdən istifadə edilir ki, bunların da əsas çatışmayan problemi texnoloji prosesin icrası zamanı axıcılığın və sürətin aşağı olması səbəbindən yüklərin idarə olunmasında keyfiyyətin nisbətən aşağı düşməsinə səbəb olur [6]. Məsələn, aeroportlarda baqajın çeşidlənməsi sistemində T569П (şəkil 2) tipli təkançılardan istifadə olunur. Avtomatlaşdırılmış anbar komplekslərində anoloji təkançılardan istifadə olunur.



Şəkil 2 Təkançı T569P

T593 təkançısının xarakteristikası:

Val üzərində yığılmış Motor-reduktor 75 kvt; Zərbəyə davamlı rezin dirəkli üzlənmiş kotançı; Təkaçının qolunun optimal hərəkəti; dövrə vaxtı; çeşidləmənin yüksək aparılması bacarığı; konveyer çeşidləyicisinin sürəti; Baqajın "virtual" pəncərəyə 2 m məsafədə maksimal yerdəyişməsi; Hərəkətin qurtarmasının CAMS vasitəsilə müəyyən olunması; Mühərrikin 360 dərəcə tam dönməsi; Texniki xidmət aparılmayan yastığın olması; Layihənin çevik həlli; PLC bazasında müasir idarəetməsistemi AİS-in idarəetmə proqramı Siemens şirkətinin Microwin proqramında yazılmışdır[7,8].



Şəkil AİS-in idarəetmə proqramı

Nəticə

İşdə anbarda yüklərin avtomatik çeşidləmə sisteminin aşağıdakı mərhələləri göstərilmişdir;
Mövzunun aktuallığının əsaslandırılması;
Tapşırıqların əhatə dairəsinin və layihələndirilən sistemin funksiyaları müəyyənləşdirilməsi;
İdarəetmə proqramının yazılması.

ƏDƏBİYYAT SİYAHISI:

1. Həsənov Yaşar, Cəfərov Sənan, Ağayev Ulduz. Proqramlaşdırılan məntiqi kontrollerlər. Bakı 2015
2. Rüstəmov Q. Ə. Avtomatik tənzimləmə nəzəriyyəsi.MATLAB/Simulinkdə modelləşdirmə. Xətti tənzimləmə sistemləri. 1-ci hissə. Bakı,2012
3. Engin Altın. PLC proqramlama. www.plcmerkezi.com.tr
4. S7-300 ve S7-400 Programlama İçin Merdiven Mantığı (Ladder Logic - LAD). Referans El Kitabı
5. www.plcmerkezi.com.tr
6. www.schneider-electric.ru
7. www.industry.siemens.com
8. https://www.scribd.com/document/74492778/Siemens-s7-300-Egitim-Notlari

QAFAROV Qadir Arzu oğlu
Azərbaycan Texniki Universitetinin baş müəllimi
E-mail: qafarov1997@gmail.com

BARAMOV Nəbi Şərəf oğlu
Azərbaycan Texnologiya Universitetinin II kurs magistrantı

ANESTEZİOLOJİ PARAMETRLƏRƏ NƏZARƏT SİSTEMİNİN İŞLƏNMƏSİ

Xülasə

Məqalənin əsas tədqiqat obeykti xəstə ilə aparat arasında baş verən dərman proseduralarına nəzarət sistemidir. Daha dəqiq desək, xəstəyə dəqiq miqdarda anesteziya preparatının yeridilməsi zamanı tibbi personal tərəfindən yarana biləcək xətaların korreksiyası üçün əməliyyat zamanı anestezioloqa kömək etməkdir. Bu prosesdə bir çox təhlükəli problemlərin aradan qaldırılması üçün mikrokontroller əsasında avtomatik anesteziya aparatının yeridilməsi üçün elektron sistemin layihələndirilməsi təklifi irəli sürülür.

Açar sözlər: Anesteziya, idarəetmə sistemi, Arduino uno, fizioloji parametrlər, mikrokontroller.

Cərrahi əməliyyata başlamaq üçün həkimlər tərəfindən hər hansı böyük əməliyyatdan əvvəl xəstə anesteziya edilməlidir. 4 və ya 5 saata qədər davam edə bilən böyük əməliyyatlar zamanı anesteziyanın tam dozası xəstəyə bir dozada verilə bilməz. Çünki həddindən artıq doza xəstənin daimi huşunu itirməsinə səbəb ola biləcək kritik vəziyyətə səbəb ola bilər. Bu problemi aradan qaldırmaq üçün anestezist gələcək yan təsirləri minimuma endirmək üçün xəstənin klinik parametrləri əsasında anesteziyanın avtomatik istiqamətini tərtib etməlidir [1]. Ağrısız cərrahiyyə əməliyyatı üçün anesteziya çox vacibdir, ona görə də uğurlu əməliyyat üçün anesteziyanın avtomatik istiqaməti vacibdir. Hal-hazırda klinik praktikalarda anestezist xəstəyə əl ilə anesteziya tətbiqi sistemindən istifadə edir. Bu, anesteziyanın dozasının dəyişməsi və gələcək həyatda mənfi yan təsirlər əldə etmək şansı kimi bir çox mürəkkəbliyi yarada bilər. Bundan əlavə, anesteziologq cərrahi əməliyyat zamanı xəstəni narahat edə biləcək əvvəlcədən təyin olunmuş vaxt ərzində dəqiq anesteziya dozasını tətbiq edə bilməz. Anestezik proseslər təkrarlanır və anestezioloqun ciddi diqqətini tələb edir. Dərman qəbulunun avtomatik mexanizmi sayəsində səhvlərin tezliyi kəskin şəkildə azalır [2]. Bu kontekstdə insan səhvini minimuma endirmək üçün anesteziya ilə bağlı proseslərin avtomatlaşdırılmasına ehtiyac var, gündəlik təkrarlanan fəaliyyətlərdən yaranan narahatlıq minimuma endirilə bilər və anestezioloqun xəstəyə birbaşa qayğı göstərmək üçün daha çox vaxtı ola bilər. İndi bir gün quraşdırılmış sistem müxtəlif tibbi və bioloji parametrlərə nəzarət etmək üçün tibb sənayesində bir çox tətbiqlərdə istifadə olunur.

Hazırkı təklif olunan sistemdə ikili əməliyyat üçün rejim açarı əlavə edilmişdir. Arduino uno əsaslı sistem xəstəyə verilən anesteziya səviyyəsini saxlamaq üçün dərmanı yeritmək üçün istifadə olunur. Anesteziyanın dozası əvvəlcədən bilinməlidir, çünki əvvəlcədən təyin edilmiş dəyər anestezik nəzarəti üçün giriş kimi proqramlaşdırılır. Anesteziyanın faktiki dozası xəstənin bədən parametrlərinə əsasən əvvəlcədən müəyyən edilir. Arduino uno anesteziyanın dozasını tənzimləmək üçün quraşdırılmış sistemdən istifadə edərək proqramlaşdırılmışdır.

Anestezioloji prosesin idarəetmə sistemi: Sistemin əsas elementləri aşağıdakılardır.

Avadanlıq Tələbləri

1) Arduino uno.
2) LCD.
3) Motor sürücüsü.
4) DC mühərriki.
5) Ürək döyüntüsü sensoru.
6) Tənəffüs sensoru.
7) Temperatur sensoru.

8) Şpris pompası.
9) Klaviatura.



Şəkil 1. Təklif olunan qurğunun blok sxemi.

Arduino Uno platforması layihənin əsas kontrolleridir. Analoq girişlərə ürək döyüntüsü, tənəffüs və temperatur sensorları qoşulur [3]. Ürək döyüntüsü sensoru xəstənin bir dəqiqədə ürək döyüntüsünü tədqiqatçıya kəmiyyət göstəricini ötürəcəkdir. Barmağa yerləşdirilmiş sensor işıq detektoru və LED-dən ibarətdir. İşıq intensivliyinin dəyişməsi ürəyin qanı vurduğu zaman yaranır. Bu variasiya elektrik impulsuna çevrilir. Bir dəqiqədə yaranan impulsların sayı bir dəqiqədə ürək döyüntüsünü verəcəkdir. Eyni zamanda, bədən istiliyi və tənəffüs dərəcəsi kimi parametrlər müvafiq sensorlar tərəfindən qəbul olunur. Bu dəyərlər Arduino platformasına giriş siqnalları kimi daxil olur. Anesteziya dozası üçün minimum dəyər müəyyən edilmişdir, bu da platformada verilmiş artım və azalma düymələrindən istifadə etməklə dəyişdirilə bilər [4]. Ürək döyüntülərinin sayı və qalan doza səviyyələrinin LCD-də göstərilməsi üçün sistemdə uyğun proqram tutulmuşdur. Xüsusi bir vəziyyət yarandıqda, idarəedici start düyməsini basaraq anesteziya verir, sabit cərəyan mühərriki işə qoşulur. Nəticədə anesteziyanı enjekte etməyə başlayacaq şpris pompası işə düşür. Sabit cərəyan L293D mühərrik dreyveri tərəfindən idarə olunur. Mühərrik iki istiqamətli, yəni irəli və geri istiqamətlərdə idarə oluna bilər. Parametrlərin hesablanması nəticəsində prosesin anormal olduğu nəticəsinə gəlinərsə, anesteziya normal dəyərə çatana qədər nasosun aktiv rejimdə işləməsinə maneə olur. Rejim açarı klaviatura ilə idarə oluna bilən təcili əl əməliyyatı üçün istifadə olunur. Normal vəziyyətdə ürək döyüntüsünün tezliyi və anormal vəziyyətdəki ürək döyüntüsünün tezliyi arasındakı fərq əsasında proqramlaşdırılmışdır. Avtomatik anesteziya idarəetmə sisteminin istifadəsi xəstənin təhlükəsiz halda əməliyyatının davam etdirilməsi şansını artırır və onun nəzarəti altında olan digər fizioloji parametrlərə birbaşa nəzarət yetirməklə anestezioloqun işini rahatlaşdırır. Təklif olunan sistem subyekt tərəfindən daxil edilən verilənlər əsasında ilkin dərmanların ilkin dozasını hesablayır, bundan sonra xəstənin əsas parametrləri cihaz tərəfindən davamlı olaraq müşahidə altında saxlanılər. Əgər cərrahi əməliyyat zamanı hər hansı bir parametr normal həddən kənara meyl edərsə, sistem anesteziyanın tələb olunan dozasını yenidən hesablayır və infuziya mexanizmindən istifadə etməklə eyni doza bədənə yeridilir [5].

Nəticə

Müasir texnologiyalar biotibbi cihazların hər bir sahəsində avtomatlaşdırmanın inkişaf etdirilməsinə gətirib çıxarmışdır. Bu layihə həm dərmanların tənzimlənməsinin avtomatlaşdırılması sisteminə əsaslanır, həm də cərrah üçün anesteziyanın cari vəziyyətdə xəstənin fizioloji parametrlərinə nəzarət üçün çox faydalı olacaq, beləliklə xəstələrə düzgün anesteziya preparatları vurulacaqdır. Avtomatik anesteziya idarəetmə sistemi üzrə layihə tibb sənayesində effektiv mühafizəedici sistemlərdən biridir. Bu sistem xəstə üçün xüsusi parametrə nəzarət edən və anesteziya prosesini nizamlayan anestezioloqlar üçün çox faydalıdır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Collins V.J."General Anesthesia Fundamental Considerations", 3th Edition, Philadelphia, Lea&Febiger, 1993, 314-359.
2. Durgadevi S, Anbananthi Embedded System: Patient Life Secure System Based On Microcontroller. International Journal for Advance Research in Engineering and Technology, 2014, 142-147.
3. Hanumant R.Vani , Pratik V, Makh, Mohanish & Chandurkar.K Anesthesia Regularization using Heart Beat Sensor International Journal Of Engineering, Education And Technology (ARDIJEET),2 (1), 2014,1 - 9.
4. Isaka, S., "Control Strategies for Arterial Blood Pressure Regulation", IEEE Trans. Biomed. Eng., 40, 1993, 353- 363. Jung Kim, Gina Bledsoe, Steven R Hofstetter, Maureen Fitzpatrick & Maria Fezza, Patient Safety, Practice Management, BJA: British Journal of Anaesthesia, 108(2),2012, 310-367,https://doi.org/10.1093/bja/aer487.
5. Kraft HH & Lees DE., "Closing the loop: How near is automated anesthesia?" Southern Med. J., 77, 1984, 7-12.

BAXŞƏLİYEVA Sevinc Vaqif qızı
Müəllim, ADNSU,
E-mail: sevinc.quliyeba@asoiu.edu.az

ÖLÇMƏ NƏTICƏLƏRİNİN EMAL DƏQİQLİYİNİN ARTIRILMASI

Xülasə

Analoq-rəqəm çevirmələri nəticələrinin xətanın tullantılarına görə çeşidlənməsi və zay ölçmə nəticələrinin bərpası üsuluna baxılmışdır. Bu məqsədlə məxtəlif alqoritmlər təklif edilmiş, təsadüfi küylərin tullantılarının aşkarlanması və süzülməsinin sonlu fərqlər alqoritminin istifadə olunması məqsədəuyğunluğu əsaslandırılmışdır.

Açar sözlər. ölçmə nəticələri, emal dəqiqliyi, süzülmə, ölçmə xətası.

Giriş

Ölçmə sisteminin girişinə diskretlənmiş {Xi}, $i=\overline{1,N}$ ölçülən ardıcıllıq daxil olur. Əgər mane olan tə'sirlər (onlar müxtəlif təbiətə malik ola bilərlər və gələcəkdə onları küy adlandıracağıq) olmasaydı, onda ölçmə nəticələrinə müvafiq olan $\{y_i\}$ $i=\overline{1,N}$, ardıcıllığı $y_i=\gamma\cdot x_i$ olardı (burada γ-ölçmənin həssaslığıdır). Təcrübədə çox vaxt xətti sistemlər tətbiq olunurlar. Ona görə də sonrakı bölmələrdə sabit parametrli (yəni γ=const) xətti sistemlərə baxacağıq. Təhlilin sadəliyi üçün γ=1 qəbul edək. Real sistemlərin $\{y_i\}$ xətaları nəzərə alınmaqla ölçmə nəticələrinin ardıcıllığını aşağıdakı şəkildə göstərək

$$\hat{y}_i^* = x_i + \varepsilon_i, \quad i=\overline{1,N}. \tag{1}$$

Ölçmə xətalarının yaranmasına səbəb olan amillər, ümumiyyətlə dəsək, təsadüfi xarakterə malik olduqlarından ölçmə xətalarına da müəyyən təsadüfi prosesin realizasiyasından ibarət təsadüfi

kəmiyyət kimi baxmaq olar. Bu halda polyar siqnalların ayrılması məsələsinin həlli zamanı ən əlverişli metodlardan biri statistik fərziyyələrin yoxlanılması metodudur.

Problemin həlli

Elementar ardıcıllıqların yalnız işarəsindən istifadə edən alqoritmlər işarə alqoritmləri adlanır. Mərkəzləşdirilmiş paylanma funksiyasına əngəlin növündən asılı olmayaraq malik olan stasionar küy üçün ardıcıllıqdakı müsbət və mənfi elementlərin sayı eynidir. Əngəllər fonunda müsbət işarəli siqnal olduqda ardıcıllıqda müsbət işarəli elementlərin olması ehtimalı mənfi işarəli elementlərin olması ehtimalından çoxdur. Bu qayda faydalı siqnalı aşkar etmək üçün istifadə edilə bilər. İşarə alqoritminə müvafiq olaraq daxil olan qarışıqda müsbət siqnalın olması haqqında N1 alternativi qeyri-asılı ardıcıllıq üçün

$$\varepsilon = (\varepsilon_1, \varepsilon_2, \ldots, \varepsilon_n); \qquad \sum_{i=1}^{n} sign\varepsilon_i \geq H \tag{2}$$

şərti mövcüd olduqda doğru sayılır. Burada N-ehtimalın verilmiş α qiyməti ilə təyin olunan həddir, $sign\varepsilon_i$ işarə funksiyası olaraq belə təyin olunur:

$$sign\varepsilon_i = \frac{\varepsilon_i}{|\varepsilon_i|} = \begin{cases} 1, & \varepsilon_i \geq 0; \\ -1, & \varepsilon_i < 0. \end{cases}$$

(2) bərabərsizliyinə əks olan bərəbərsizlik halında N_1 alternativi rədd edilir və müsbət siqnalın olmaması (yoxluğu) barədə N_0 fərziyyəsi qəbul edilir.

İşarə alqoritmləri birtərəfli və ikitərəfli ola bilərlər. Birtərəfli alqoritmdə həllin seçilmə qaydası hər hansı polyarlıqlı seçmənin elementlər sayının verilmiş N hüdudunu keçməsinin yoxlanılmasından ibarətdir. Yuxarıda nəzərdən keçirilən alqoritm müsbət siqnal üçün birtərəfli alqoritmdir. İkitərəfli alqoritm üçün hər iki işarə nəzərə alınır, yə'ni ardıcıllığın müsbət elementləri sayının və ya mənfi elementləri sayının müəyyən hüdudu (həddi) aşması barədə fərziyyə yoxlanılır.

Hal hazırda fərziyyələrin fərqləndirilməsi üçün xeyli sayda statistik test məlumdur [1]. Əngəllər fonunda (1) ardıcıllığından yararlı ölçmələrin ayrılması məsələsi hipopetik G(ε)(w(ε)) və alternativ F(ε)(f(ε)) paylanmalarının iki testinin fərqləndirilməsindən ibarət olduğundan bu testlər bu və ya digər şəkildə faydalı siqnalın ayrılması məsələsinin həlli üçün istifadə oluna bilər.

İşarəli test ən sadə qeyri-parametrik testlərdən biridir [2]. Onun statistikası polyarlıqların (işarələrin) nəzərə alınmasına əsaslanır:

$$S = \sum_{i=1}^{n} h(\varepsilon_i), \quad h(\varepsilon_i) = \begin{cases} 1, & \varepsilon_i > 0; \\ 0, & \varepsilon_i < 0. \end{cases} \tag{3}$$

Bəzən (3) əvəzinə görünüşü testin adını izah edən mərkəzləşdirilmiş statistikaya baxılır:

$$T = \sum_{i=1}^{n} sign(\varepsilon_i); \quad sign(\varepsilon_i) = \frac{\varepsilon_i}{|\varepsilon_i|} = \begin{cases} 1, & \varepsilon_i > 0; \\ -1, & \varepsilon_i < 0. \end{cases}$$

İşarə funksiyası vahid sıçrayış funksiyası h(ε) ilə sign(ε)=2·h(ε)-1 ifadəsi ilə bağlıdır.

Test F(ε) paylanmasının medianının sıfırdan böyük olması fərziyyəsinə N0 qarşı G(ε) paylanmasının medianının sıfra bərabər olması fərziyyəsinin yoxlanılması üçün tətbiq oluna bilər. Qalan xassələrinə görə G(ε) və F(ε) ixtiyaridirlər. Bu, simmetrik W(ε) ehtimal sıxlığına və sıfıra bərabər orta qiymətə malik additiv stasionar küy fonunda müsbət siqnalın aşkar edilməsi məsələsinə uyğun gəlir. G(ε)-nun medianı naməlum olub yalnız onun F(ε)-nin medianından kiçik olması məlumdursa, iki ardıcıllıqlı işarə testi almış olarıq. Bu test küylü $y_1^*, y_2^*, \ldots, y_n^*$ və $x_1, x_2, \ldots, x_n$ tədqiq olunan ardıcıllıqlarının müşahidə nəticələri cütləri fərqlərinin işarələrinin sayılmasına əsaslanmışdır:

$$S = \sum_{i=1}^{n} h(x_i - y_i^*). \tag{4}$$

Qərar qəbul edilməsi üçün S statistikası verilmiş α_1 ehtimalına görə

$$P(S > H/H_0) = \alpha_1$$

ifadəsindən təyin edilən N həddi ilə sınaqdan keçirilir (yoxlanılır).

Göründüyü kimi, (3) və (4) cəmlərində vahidlərin sayı Bernulli sınaq sxemində müsbət nəticələrin sayına ekvivalentdir. Buna görə də N həddini aşma ehtimalı belə təyin olunacaqdır:

$$P(S > H) = \sum_{i=H+1}^{n} (n_i) \cdot p^i \cdot (1-p)^{n-i}, \tag{5}$$

burada $p = P(x > y) = \int G(x) \cdot dF(x)$- x > y (x > 0) hadisəsinin ehtimalı; n_i - n-dən i-yə görə kombinasiondur. N_0 fərziyyəsi üçün ehtimal R=1/2 olduğundan fərziyyənin səhvən rədd edilməsi ehtimalı

$$\alpha = P(S > c / H_0) = (1/2)^n \cdot \sum_{i=H+1}^{n} (n_i) \tag{6}$$

G(x)-dən asılı deyildir ki, bu da testin qeyri-parametrikliyini sübut edir. Doğru olduqda alternativin qəbul edilmə ehtimalı təbii ki, G(x) və F(x)-dən asılıdır. (5) ifadəsi testin işçi xarakteristikasının düzgün aşkaredilmə ehtimalının hipotez və alternativ arasındakı fərqi xarakterizə edən R parametrindən asılılığını müəyyən edir. Siqnalın yararlı ölçmələrinin ixtiyari naməlum paylanmalı küy fonunda ayrılması məsələsini nəzərdən keçirək. Yalnız o məlumdur ki, siqnalla əngəlin qarışığının ölçmələri statistik olaraq ölçmələrin sayından çoxdur. Bu o deməkdir ki,

$$h_i = h(x_i - y_i^{**}) = \begin{cases} 1, & x_i > y_i^{**}; \\ 0, & x_i < y_i^{**}. \end{cases}$$

təsadüfi kəmiyyəti (burada xi və sınaqdan keçirilən $x_1, x_2, \ldots, x_n$ və küylü (bulanıq) ardıcıllıqlarının elementləridir) $y_1^*, y_2^*, \ldots, y_n^*$ ehtimalı ilə "0" və ya "1" (əgər X əngəldirsə), P>1/2 ehtimalı ilə "1" qiymətini (əgər X siqnalla əngəlin qarışığıdırsa) alacaqdır. Faydalı siqnalın bulanıq (küylü) qarışıqdan ayrılması məsələsi P=P(n-1)=1/2 ehtimalına uyğun N_0 fərziyyəsinin alternativ N_1 (P>1/2) fərziyyəsinə qarşı yoxlanılması kimi formalizə olunur. Göstərmək çətin deyildir ki, optimal işarə aşkaredicisi bu haldan $\sum_{i=1}^{n} h_i$ cəminə əsaslanan statistikadan istifadə edir. Həqiqətən, Neyman-Pirson meyarına müvafiq olaraq aşkaredici

На примере проследим последовательность записи информации на диск. Допустим, нас просят записать на диск сборник произведений Низами Гянджеви и Эриха Марии Ремарка. Поиск первых перечисленных авторов осуществляется в списках T^{k} и T^{α} в T^{λ} – каталоге «Голографической библиотеки». В это время, поскольку Низами Гянджеви — классический азербайджанский поэт T^{α}, а Эрих Мария Ремарк — классический немецкий писатель, найдены элементы, расположенные в тензорах, составляющих список T^{λ} ($T^{\text{Низами}}$ и $T^{\text{Ремарк}}$).

Записывание сборника произведений каждого писателя начинается с координат T^{α} и T^{λ} , указанных в подтензорах $T_{ij}^{\text{Низами}}$ и $T_{ij}^{\text{Ремарк}}$, соответствующих расположению элементов. Здесь ij- — номер столбца и строки, в которых находится авторское собрание произведений.

Следующий этап, допустим, от нас также требуется создать сборник произведений другого писателя, Генриха Манна. Теперь предположим, что при поиске в списках-тензорах T^{α} и T^{λ} не было найдено никакой информации о нем. В этом случае сначала определяется, является ли он азербайджанцем или иностранным писателем (немецкий писателем) и заносится в соответствующий список (T^{λ}), на одно из ранее установленных для таких случаев пустых мест ($T^{\text{Манн}}$). После этого его произведения будут добавлены к координате T_{ij}^{λ} в подтензоре $T_{ij}^{\text{Манн}}$. Понятно, что если потребуется создать сборник произведений Азербайджанского поэта Самеда Вургуна, то вся информация о поэте будет собрана в координате $T_{ij}^{\text{Вургун}}$ в подтензоре T_{ij}^{α}, соответствующем элементу $T^{\text{Вургун}}$, указанному из T^{α} список в том же порядке.

Таким образом, мы создаем математическую модель того, о чем мы говорили выше. Программирование выполняется на основе этой математической модели. То есть алгоритм последовательности записи информации на диск задается следующим образом:

Результат

В современное время широко используется математическое моделирование. Это направление в настоящее время охватывает практически все области науки и техники. Итак, при проектировании любой конструкции или идеи применяется имитационное моделирование. Средства моделирования представляют собой совокупность различных программных средств и прикладных систем, реализованных на компьютере. При этом модель, созданная человеком любыми способами, является зеркальной копией оригинала. Математическая модель представляет реальный объект или процесс с помощью математических инструментов, т. е. уравнений, логических выражений, тензоров и матриц и т. д. это выражение с помощью

Соответственно, создание математической модели записи информации на голографические диски позволяет глубоко понять, правильно спланировать и спроектировать этот процесс, обеспечить непротиворечивость и точность записи информации.

Поскольку голографические диски обладают способностью собирать большие объемы информации и хранить их в хорошем качестве годами, их можно использовать для хранения произведений искусства, фильмов и передач, документов и необходимой информации. При этом, в отличие от других запоминающих устройств, голографические диски имеют возможность записывать информацию в большем объеме, т. е. записывать несколько порций информации в одно и то же место. Эти диски могут хранить больше информации и хранить ее в течение более длительного времени. Поэтому процесс записи информации на диски следует изучать глубже, а

также увеличивать производство голографических дисков.

С использованием возможностей этой технологии создана математическая модель проекта создания «Голографической библиотеки». Затем на основе математической модели было проведено программирование и установлен алгоритм последовательности записи информации на диск.

Преимущество созданной «Голографической библиотеки» состоит в том, что она поможет сохранить уникальные книги или информацию и обеспечить их передачу следующему поколению в лучшем виде.

СПИСОК ЛИТЕРАТУРЫ:

1. Elnare Firdus, Rustamova D.F, Aliyev V.K., Talibov Z.A.Virtual Reality In Training Impact On Students Of Educational Programs In Augmented Reality. JournalofPharmaceuticalNegativeResults¦Volume14¦Special Issue2¦2023
2. https://www.pnrjournal.com/index.php/home/article/view/6536

3. Что такое голограмма? - Определение и принцип работы (new-science.ru)
4. История голографии
5. New-Science.ru https://new-science.ru/chto-takoe-gologramma-opredelenie-i-princip-raboty/
6. Голографические диски хранят информацию даже после поломки – Blog Imena.UA
7. Голографические диски
8. Сравнение голографических и итерационных методов при восстановлении изображения амплитудного объекта | Semantic
9. Голографические системы записи информации
10. Неймарк Ю.И. Н. Математическое моделирование как наука и искусство: Учебник. − 2-е изд., испр. и доп. − Н. Новгород: Изд-во Нижегородского госуниверситета, 2010.−420 с.
11. Rüstəmov Qəzənfər Ərəstun oğlu Riyazi modelləşdirmə və simulasiya Dərs vəsaiti. Bakı, AzTu, 2015,- 120 s.

ƏLİZADƏ Bahadur Sabir oğlu
Bakı Avrasiya Universiteti
E-mail: Bahaduralizade@gmail.com

BAKI ŞƏHƏRİ TABELİYİNDƏ İCRA HAKİMİYYƏTLƏRİ ARASINDA OPTİMAL ƏLAQƏ YOLUNUN SÜRÜ ZƏKALI ALQORİTMLƏRLƏ TAPILMASI

Giriş

Sürü Zəkalı (SZ) alqoritmləri təbiətdə müşahidə edilən sürü davranışlarını modelləşdirən süni intellekt üsullarıdır. Bu alqoritmlər bir-biri ilə qarşılıqlı əlaqədə olan və ümumi məqsədlərə doğru hərəkət edən sürüdəki fərdləri təqlid edir. SZ alqoritmləri xüsusilə optimallaşdırma, data mining və maşın öyrənməsi kimi sahələrdə istifadə olunur.

Sürü zəkalı alqoritmlər arasında ən çox istifadə olunanlar:

• Particle Swarm Optimization (PSO) [1]: Bu alqoritm çoxlu hissəciklərdən ibarət dəstəni modelləşdirərək optimallaşdırma problemlərini həll etməyə çalışır. Hər bir hissəcik ən yaxşı həll yolu izləyərkən sürüdəki digər hissəciklərlə qarşılıqlı əlaqədə olur. PSO xüsusilə mühəndislik, iqtisadiyyat və biznes kimi sahələrdə optimallaşdırma problemlərinin həlli üçün istifadə olunur.

• Ant Colony Optimization (ACO) [2]: Bu alqoritm qarışqaların qida mənbələrini tapmaq üçün istifadə etdiyi təbii davranışları modelləşdirməklə optimallaşdırma problemlərini həll etməyə çalışır. Qarışqa koloniyaları qida mənbələrinə qısa yollar yaradaraq kollektiv şəkildə hərəkət edirlər. ACO, xüsusilə telekommunikasiya, istehsal və logistika kimi sahələrdə optimallaşdırma problemlərini həll etmək üçün istifadə olunur.

• Artificial Bee Colony (ABC) [3]: Bu alqoritm arı ailələrinin qida mənbələrini tapmaq üçün istifadə etdikləri təbii davranışları modelləşdirməklə optimallaşdırma problemlərini həll etməyə çalışır. Arılar qida mənbələrini kəşf etmək, toplamaq və saxlamaq üçün bir-biri ilə qarşılıqlı əlaqədə olurlar. ABC xüsusilə mühəndislik, iqtisadiyyat və biznes kimi sahələrdə optimallaşdırma problemlərinin həlli üçün istifadə olunur.

Sürü Zəkalı Alqoritmlərin Multidissiplinar İstifadəsi

Sürü zəka alqoritmləri bir çox müxtəlif sahələrdə istifadə edilə bilər. Xüsusilə, bir çox fərqli elm sahəsinin alimləri multidisiplinar bir yanaşma ilə bir araya gələrək sürü kəşfiyyatı alqoritmlərindən istifadə edərək həllər ortaya qoyurlar [4].

Sürü zəkasının alqoritmlərinin çoxşaxəli olduğunu müəyyən etmək üçün bu alqoritmlərin bir çox fərqli sahələrdə istifadə edilməsinə və müxtəlif elm adamları tərəfindən mənimsənilməsinə bir neçə nümunə verə bilərik.

Məsələn, PSO alqoritmi mühəndislik, biznes, iqtisadiyyat, biologiya, riyaziyyat və kompüter elmləri kimi bir çox fərqli fənlərdə istifadə olunur. Bu alqoritmin tətbiq sahələrinə enerji sistemləri,

robot texnikası, telekommunikasiya, tibbi görüntüləmə, verilənlərin öyrənilməsi və maşın öyrənməsi daxildir. Buna görə də deyə bilərik ki, PSO çoxşaxəli bir alqoritmdir [5].

Eynilə, ACO alqoritmini multidissiplinar alqoritm hesab etmək olar. Bu alqoritm kompüter elmləri, mühəndislik, logistika, istehsalat, biologiya, iqtisadiyyat və biznes kimi bir çox müxtəlif sahələrdə istifadə olunur. Optimallaşdırma problemlərinə əlavə olaraq, ACO alqoritmi hörümçək toru alqoritmləri və ot maşını öyrənmə kimi digər süni intellekt üsulları ilə birlikdə istifadə edərək daha təkmil həllər istehsal etmək üçün istifadə olunur.

Nəhayət, ABC alqoritmini də multidissiplinar alqoritm hesab etmək olar. Bu alqoritm mühəndislik, biznes, iqtisadiyyat, biologiya, riyaziyyat və kompüter elmləri kimi bir çox fərqli fənlərdə istifadə olunur. ABC alqoritminin tətbiq sahələrinə verilənlərin öyrənilməsi, maşın öyrənməsi, optimallaşdırma problemləri və nevroloji xəstəliklərin diaqnozu daxildir.

Bütün bu nümunələr göstərir ki, sürü kəşfiyyatı alqoritmləri bir çox müxtəlif sahələrdə istifadə olunur və buna görə də çoxşaxəli xarakter daşıyır.

Əsas mətn

Sürü zəka alqoritmləri bir çox müxtəlif optimallaşdırma problemlərində istifadə edilə bilər:

1. Funksiyaların optimallaşdırılması: PSO, ACO və ABC kimi sürü intellekt alqoritmləri funksiyaları tək və ya çox dəyişənlərlə optimallaşdırmaq üçün istifadə edilə bilər. Bu alqoritmlərin tətbiq oluna biləcəyi nümunələrə qlobal optimallaşdırma, mürəkkəb funksiyaların optimallaşdırılması və emal problemlərinin optimallaşdırılması daxildir.
2. Süni neyron şəbəkələri: Süni neyron şəbəkələri öyrənmə əməliyyatları, model optimallaşdırması və şəbəkə strukturunun optimallaşdırılması kimi müxtəlif problemləri həll etmək üçün müxtəlif sürü zəka alqoritmləri ilə birlikdə istifadə edilə bilər.
3. Kombinator optimallaşdırma: Kombinator optimallaşdırma problemlərinə bir çox sahələrdə rast gəlinir. Bu cür problemlər optimal birləşmələrin tapılmasını tələb edir. ACO və ABC kimi sürü kəşfiyyatı alqoritmləri bu cür problemlərin həllində yüksək effektivliyə malikdir.
4. Data mining: sürü zəkalı alqoritmləri data mining problemlərində də istifadə edilə bilər. Nümunələrə qruplaşma, təsnifat və xüsusiyyət seçimi daxildir. Belə məsələlərin həlli üçün PSO, ABC, ACO kimi alqoritmlərdən geniş istifadə olunur [6].
5. Süni həyat və robot texnikası: sürü intellekt alqoritmləri süni həyatda və robototexnikada da istifadə edilə bilər. Nümunələrə robot nəzarəti, davranış modelləri və robot sürülərinin optimallaşdırılması daxildir.

Bu nümunələr göstərir ki, sürü kəşfiyyatı alqoritmləri bir çox müxtəlif optimallaşdırma problemlərində istifadə edilə bilər. Bu alqoritmlər mürəkkəb problemlərin həllində yüksək effektivliyə malikdir və multidissiplinar yanaşma təklif edir.

Gəzən Satıcı (Tacir) Problemi və Sürü İntellekt Alqoritmlərinin İstifadəsi

Gəzən Satıcı Problemi (GSP) bir səyyahın müəyyən sayda şəhərə getməsi və ən qısa yolu tapmaq üçün hər bir şəhərə bir dəfə baş çəkməsi problemidir. Bu problem riyazi optimallaşdırma məsələlərindən ən məşhurlarından biridir və mürəkkəbliyinə görə bir çox sahələrdə istifadə olunur.

TSP kimi kombinatorial optimallaşdırma məsələlərinin həlli klassik optimallaşdırma üsulları ilə olduqca çətindir. Buna görə də son illərdə təbiətdən ilham alan sürü kəşfiyyatı alqoritmlərinin TSP kimi optimallaşdırma problemlərində uğurlu nəticələr əldə etdiyi müşahidə edilmişdir.

Sürü kəşfiyyatı alqoritmləri təbiətdəki qarışqa koloniyaları, arı sürüləri və quş sürüləri kimi canlı orqanizmlərin davranışlarından ilhamlanır. Bu alqoritmlər adətən birdən çox fərdin qarşılıqlı əlaqəsi ilə icra edilən əhaliyə əsaslanan yanaşmadır [7].

TSP həlli üçün istifadə edilən sürü kəşfiyyatı alqoritmləri arasında Genetik Alqoritm, Qarışqa Koloniyasının Optimizasiyası, Hissəcik Sürünün Optimizasiyası, Arı Koloniyasının Optimizasiyası kimi bir çox alqoritm var. Bununla belə, bu alqoritmlərin ən uğurlularından biri Qarışqa Koloniyası Optimizasiyasına əsaslanan Qarışqa Koloniyası Optimizasiyası (ACO) alqoritmidir.

ACO alqoritmi TSP kimi optimallaşdırma problemlərində çox uğurludur. Bu alqoritm qarışqa koloniyalarının qida mənbələri tapmaq strategiyalarından ilhamlanıb. ACO alqoritmi hər bir şəhər üçün bir qarışqa yaradır və qarışqalar şəhərlər arasında hərəkət etdikcə feromon izləri buraxırlar.

Daha sonra qarışqaların izlədiyi yolların feromon konsentrasiyalarına uyğun olaraq yeni yollar seçilir və bu proses iterativ şəkildə davam edir. Bu şəkildə ən yaxşı marşrutu tapmaq üçün yüksək ehtimallı marşrutlar götürülür [8].

ACO alqoritmi bir çox tədqiqatlarda TSP kimi optimallaşdırma problemlərində çox uğurlu nəticələr vermişdir. Bundan əlavə, ACO alqoritmi digər sürü kəşfiyyatı alqoritmlərini üstələyib.

Nəticə

Bu məqalədə Bakı şəhərində yerləşən icra hakimiyyətləri arası sənəd dövriyəsi üçün ən münasib başlanğıc və son nöqtələrə əsasən uyğun xəttin tapılması nəzərdə tutulmuşdur. Araşdırma üçün hər bir icra hakimiyyətinin google map xəritəsində lokasiya məlumatları əldə edilmişdir :

№	Məntəqələr	X kordinatı	Y kordinatı
1	Bakı şəh	40.3670652633851	49.83153919760197
2	Binəqədi	40.43714742303285	49.84617469760441
3	Qaradağ	40.32101457952699	49.72695889760029
4	Yasamal	40.37871259685699	49.80860579760233
5	Nizami	40.41013903255076	49.94524382643942
6	Nərimanov	40.3871342964995	49.854623421449425
7	Nəsimi	40.38996125404531	49.83721438225856
8	Pirallahı	40.46702593991456	50.32863459760548
9	Sabunçu	40.41936971328883	49.96300715527583
10	Səbail	40.37327466337069	49.84710358225813
11	Suraxanı	40.4244491285933	49.99559309760397
12	Xətai	40.38423813269676	49.87479364363482
13	Xəzər	40.4841318642249	50.16283563993401

Lokasiyalar arası məsafə cədvəli isə aşağıdakı kimidir :

	Bakı şəh	Binəqədi	Qaradağ	Yasamal	Nizami	Nərimanov	Nəsimi	Pirallahı	Sabunçu	Səbail	Suraxanı	Xətai	Xəzər
Bakı şəh	X	9.3	15.4	2.9	12.9	3.5	3.2	61	14.6	1.8	19.4	4.7	37.6
Binəqədi	9.3	X	21	7.9	13.9	7.0	6.2	59	14.9	7.8	17.0	8.1	35.9
Qaradağ	15.4	21	X	15.7	28	18.5	17.9	76.4	29.6	17	34.3	19.7	53.2
Yasamal	2.9	7.9	15.7	X	15.6	5.1	3.2	63.0	16.8	4.5	20.9	6.9	39.9
Nizami	12.9	13.9	28	15.6	X	10.7	12.6	48.7	2.6	11.4	7.3	8.5	25.6
Nərimanov	3.5	7.0	18.5	5.1	10.7	X	1.9	58.0	12.4	2.0	15.9	3.9	34.9
Nəsimi	3.2	6.2	17.9	3.2	12.6	1.9	X	59.8	14.3	2.4	17.8	4.5	36.7
Pirallahı	61	59	76.4	63	48.7	58	59.8	X	47.5	59.2	42.4	56.3	29.0
Sabunçu	14.6	14.9	29.6	16.8	2.6	12.4	14.3	47.5	X	13.0	5.7	10.1	24.4
Səbail	1.8	7.8	17	4.5	11.4	2	2.4	59.2	13.0	X	17.9	3.1	36.0
Suraxanı	19.4	17.0	34.3	20.9	7.3	15.9	17.8	42.4	5.7	17.9	X	14.8	19.3
Xətai	4.7	8.1	19.7	6.9	8.5	3.9	4.5	56.3	10.1	3.1	14.8	X	33.1
Xəzər	37.6	35.9	53.2	39.9	25.6	34.9	36.7	29.0	24.4	36.0	19.3	33.1	X

Burada alqoritm olaraq Tabu Search [9] və ACO istifadə olunmuşdur. Hər iki alqoritm 30 dəfə işə salınaraq mümkün qiymətlər müqayisə edilmişdir.

Alqoritm		Getdiyi güzərgah	Yekun yolun uzunluğu
Tabu Search	ən yaxşı nəticə	2-3-4-5-13-6-7-8-9-11-12-10-1	227.1
	ən pis nəticə	5 -4-13-2-3-6-7-8-11-10-9-12-1	261.7
ACO	ən yaxşı nəticə	1-5-4-3-2-6-7-8-9-10-11-12-13	174.4
	ən pis nəticə	13 -2-3- 4-5-1-12-6-7-8-9-10-11	181.8

Yekun nəticəyə görə ən yaxşı yolu ACO alqoritminin tapmasıdır. Bu yol Bakı – Nizami – Yasamal – Qaradağ – Binəqədi – Nərimanov – Nəsimi – Pirallahı – Sabunçu – Səbail – Suraxanı – Xətai – Xəzər istiqamətində həyata keçirilməli olduğunu göstərmişdir. Bu ən ideal yol olmasa da alqoritmin

qısa vaxt ərzində tapdığı ən optimal güzərgahdır. Bu çalışmanı daha da geniş şəkildə başqa alqoritmlər üzərində də tətbiq etmək olar.

ƏDƏBİYYAT SİYAHISI:

1. Kennedy, J., & Eberhart, R. C. (1995). Particle swarm optimization. Proceedings of IEEE International Conference on Neural Networks, 4, 1942-1948.
2. Dorigo, M., & Stützle, T. (2004). Ant colony optimization. MIT press.
3. Karaboga, D., & Basturk, B. (2007). A powerful and efficient algorithm for numerical function optimization: artificial bee colony (ABC) algorithm. Journal of global optimization, 39(3), 459-471.
4. Eiben, A. E., & Smith, J. E. (2015). From evolutionary computation to the evolution of things. Nature, 521(7553), 476-482.
5. Chakraborty, U. K., & Mukhopadhyay, S. (2017). Swarm Intelligence and Bio-inspired Computation: Theory and Applications. Elsevier.

HACILI Osman Ramazan oğlu
Qərbi Kaspi Universitetinin mühəndisi
E-mail: haciliosman@wcu.edu.az

RÜSTƏMOVA Dürdanə Fərhad qızı
Qərbi Kaspi Universiteti,
"Mexanika və riyaziyyat"kafedrasının müdiri
E-mail: durdana.rustamova@wcu.edu.az

SADIQOV Qiyas Qorxmaz oğlu
Qərbi Kaspi Universitetinin, tələbə
E-mail:qiyas.sadiqov.232it@wcu.edu.az

UZAQDAN İDARƏ OLUNA BİLƏN CİHAZLAR - IoT TEXNOLOGİYALARI

IoT texnologiyaları, cihazlar arasında əlaqələri və məlumat paylaşımını təmin edən bir şəbəkə strukturasıdır (Şəkil 1). Bu şəbəkə strukturası, cihazların internetə bağlanmasını və bir-birləri ilə əlaqə qurmasını təmin edir.

a) b)



Şəkil 1. İnternet və cihazlar arasında qurulmuş şəbəkə

Bu internet şəbəkəsi, cihazlar arasında məlumat paylaşımı həyata keçirir və bu məlumatları analiz edərək cihazların daha səmərəli bir şəkildə işləməsi təmin edir [1]. Məsələn, ağıllı termorequlyator ev sahibinin istəklərinə uyğun olaraq temperaturu tənzimləyərək enerji saxlamağını təmin edir. IoT

texnologiyaları, sənaye sahəsində də çox geniş şəkildə yayılaraq istifadə edilir. İstehsal xəttindəki cihazlar arasında məlumat paylaşımı sayəsində istehsal prosesi daha səmərəli bir hala gətirilə bilər (Şəkil 2). Həmçinin, sənaye avadanlıqlarının vəziyyəti haqqında məlumat əldə etmək, təmir və onları yenidən sazlamaq proseslərini daha effektiv hala gətirir və problem riskini azaldır.



Şəkil 2. Cihazlarla istifadəçi arasında məlumat paylaşımı

IoT texnologiyaları sağlamlıq sahəsində də istifadə edilir. Ağıllı cihazlar sayəsində xəstələrin sağlamlıq vəziyyəti izlənə bilər və həkimlər xəstələrin müalicəsini daha effektiv bir şəkildə planlaya bilərlər [2]. Məsələn, bir ürək xəstəsi izləmə cihazı ilə daimi nəzarət altında oluna bilər və cihazdakı məlumatlar həkimlər tərəfindən analiz edilərək xəstənin müalicəsi daha effektiv bir şəkildə planlaya bilərlər. Bu isə az vaxt müddətində pasient haqqında daha çox məlumat toplamaq imkanı qazandırır [3].

Lakin, IoT texnologiyalarının istifadəsi eyni zamanda bəzi riskləri də özündə cəmləyir. Məlumatların təhlükəsizliyi və gizliliyi kimi məsələlər önəm qazanır. Bu texnologiyaların istifadəsi ilə birgə toplanan məlumatların düzgün bir şəkildə qorunması və icazəsiz şəxslərin girişinə qarşı qorunması vacibdir. IoT texnologiyasının tətbiqləri və qurğularının sürətlə artması ilə yanaşı, kiber hücumlar da təkmilləşdirilərək təhlükəsizlik və məxfilik ilə əlaqədar daha da ciddi təhdidlər yaradır. Demək olar ki, bu qurğuların əksəriyyəti kiber hücumlara qarşı dayanıqsızdır. İlk baxışda belə qurğular hakerlər üçün mühüm əhəmiyyət kəsb etməyə bilər. Ancaq hakerlər ciddi sistemlərə hücum məqsədilə botnetlərin ("robot" və "network" sözlərinin birləşməsindən yaranmışdır, zərərli proqramlarla yoluxmuş və bədniyyətli tərəfindən idarə edilə bilən kompüterlər şəbəkəsidir [4]) yaradılması üçün belə qurğulara müdaxilə edirlər.

Gündən-günə artan IoT texnologiyalarının yeni növləri geniş yayılmağa başlamışdır, lakin onların təhlükəsizlikə bağlı bir sıra çatışmazlıqları mövcuddur. Məşhur elektron ticarət şirkəti "*Alibaba"-nın* mobil təhlükəsizlik qrupunun apardığı araşdırmalara əsasən, IoT qurğularının proqram təminatının 90%-dən çoxu təhlükəsizlik hücumlarına məruz qalır. Onların 94%-də isə hakerlər tərəfindən asanlıqla istifadə oluna bilən veb interfeyslərində təhlükəsizlik boşluqları vardır [5].

Nəticə olaraq, IoT texnologiyaları günümüzdə bir çox bölmələr üçün istifadə edilir və həyatımızı daha da asanlaşdırır. Lakin, bu texnologiyaların düzgün bir şəkildə istifadəsi və məlumatların təhlükəsizliyi məsələlərinə önəm verilməsi vacibdir.

IoT texnologiyalarına prototip olaraq hazırladığımız bu layihə də bəhs edilən funksiyalara sahibdir (Şəkil 3).

Şəkil 3. İşlək və sönmüş vəziyyətdəki prototip

Bu prototip uzaqdan, Esp8266 sayəsində telegram üzərindən bot ilə idarə edilən ledlərdi (Şəkil 4).

Şəkil 4.Prototipin idarə sistemi

Esp8266 Nodemcu mikrokontrollerləri indi bir çox sənaye sahələrində istifadə olunur. Bu cihazlar internet bağlantısı və bir sıra özəlliklərə sahib olan I/O pinləri ilə birlikdə olur. Bu xüsusiyyətlər sayəsində, cihazlar arasında məlumat ötürməyə imkan verən IoT (Internet of Things) tətbiqlərində istifadə edilir [6]. Həmçinin, NodeMCU platformu bir çox proqramçı tərəfindən dəstəklənir və geniş bir icma səviyyəsinə malikdir.

Şəkil 5. Esp8266 Nodemcu mikrokontrollerləri.



Telegram isə, açıq qaynaqlı anlıq mesajlaşma tətbiqidir və müxtəlif proqramlaşdırma dillərində yazılmış botların yaradılmasına imkan verir. Telegramın digər tətbiqlərdən fərqi developerlər üçün xususi imkanlar verməsidir. Botun kodları **C++** proqramlaşdırma dilindən istifadə edilərək yazlımışdır. Bu bot IoT tətbiqləri üçün mükəmməl bir həll təklif edir. Botun yaradılması üçün əvvəlcə Telegram API'na ehtiyac var. Bunu da telegram özü asan bir şəkildə təmin etməktədir. (Şəkil 6.)



Şəkil 6. Telegram API'i

Şəkil 7. Prototipin kodu

Daha sonra, **VS code** vəya **Arduino IDE**'dən istifadə edərək NodeMCU üzərində botu kodlayırıq. Kodlaşdırma prosesi, botun necə işləyəcəyini və hansı funksiyaları yerinə yetirəcəyini i təyin edən bir sıra əmr daxil edir [7]. Məsələn, sadə bir LED açma və söndürmə sistemi üçün NodeMCU üzərindəki bir GPIO pinindən istifadə edilə bilər. Bot, müəyyən bir mesaj aldığında bu pinləri aktivləşdirir və LED'i açar. Mesajın yenidən alınması halında isə pin fəaliyyətdən çıxarılır və LED söndürülür. (Şəkil 7.)

Botunuzu işə salmaq üçün, NodeMCU'nun internet bağlantısı təmin edilməlidir. Bu iş üçün, NodeMCU üzərində bir Wi-Fi modulu istifadə edə bilərik. Modul, NodeMCU'nun USB port vasitəsilə kompüterə qoşulmasını və internetə girişini təmin edir.

ƏDƏBİYYAT SİYAHISI:

1. M.H. Məmmədova, Z.Q. Cəbrayılova, Dəniz neft platformasinda personalin fizioloji vəziyyətinin və coğrafi mövqeyinin monitorinqində əşyalarin internetinin imkanlari, 2018, №2, s.3-17.
2. Report-internet of things. http://reports.weforum.org/industrial-internetof-things/general-findings/2-1-the-state-of-the-market/
3. C.R. Baudoin. Deploying the Industrial Internet in Oil & Gas: Challenges and Opportunities // Society of Petroleum Engineers, 2016, pp.1-11.
4. Y.N. İmamverdiyev, G.B. Qarayeva, Botnetlər və onların aşkarlanması üsulları, İnformasiya texnologiyaları problemləri, 2017, №1,s.100–111.
5. W.Zhou, Y.Jia, A.Peng, Y.Zhang, P.Liu, The Effect of IoT New Features on Security and Privacy: New Threats, Existing Solutions, and Challenges Yet to Be Solved, IEEE Internet of Things Journal, 2015.
6. Malware 'loving' smart devices. www.pressreader.com/uae/khaleej times/20170708/282497183695817
7. Y.Yang, L.Wu, G.Yin, L.Li and H.Zhao, A Survey on Security and Privacy Issues in Internet-of-Things, IEEE Internet of Things Journal, 2017, vol.4, issue.5, pp. 1250– 1258.

HƏŞIMOV Miriş Mehdi oğlu
Qərbi Kaspi Universitetinin magistrantı
E-mail: Administration@wu.edu.az , mirishgashimov16g@gmail.com

AZƏRBAYCAN RESPUBLİKASINDA AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNİN YARADILMASI VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Alternativ enerji mənbələrinin ərazi üzrə paylanması müxtəlif ərazi relyefinə görə potensial paylanmışdır. Bunun üçün respublikamızın ərazisində alternativ enerji mənbələrindən olan külək enerjisinin orta illik bölgüsünü xəritə üzərində şəkil 1 – də görə bilərik. Xəritədən aydın görünür ki, Qarabağ bölgəsində küləyin potensialı ən çox Kəlbəcər ərazisinin dağlıq hissələrində mümkündür.

Qubadlı və Zəngilan ərazilərinin mümkün əlverişli relyefini nəzərə alaraq külək qurğuları üçün mühəndis – texniki tərəfdən layihəsi məqsədə uyğundur. Külək qurğularının iş prinsiplərini nəzərə alsaq burada iki növ külək turbini istifadə oluna bilər. Birincisi geniş şəkildə istifadə edilən horizontal oxlu külək turbini, ikincisi isə vertikal oxlu külək turbinləridir [1]. Horizontal tipli külək turbinlərinin faydalılığı yüksək olduğundan onlardan geniş tətbiq edilir. Lakin işğaldan azad edilmiş ərazilərdə bu qurğuların relyef baxımdından küləyin kəskin sürət dəyişməsi səbəbindən istifadəsi səmərəsiz olacaqdır [2]. Küləyin istiqamətinin kəskin dəyişməsi səbəbindən burada bizim vertikal külək turbinlərindən istifadə etməyimiz daha səmərəli olacaqdır.

Dağ ətəyi ərazilərdə və digər çətin relyefli ərazilərdə küləyin kəskin istiqamət dəyişməsinin əsas səbəbi müxtəlif yüksək maneələrin olmasıdır. Bu maneəlirin fonunda axının istiqamətini dəyişməsi şəkil 2 – də verilmişdir [3].



Şəkil 1. Külək enerjinin orta illik paylanma potensialı

Şəkil 2. Küləyin maneədən sonra istiqamətini dəyişməsi



Şəkil 3. Horizontal külək turbini

Şəkil 4. Vertikal külək turbini

Bu səbəblərə görə də maneəli ərazilərdə vertikal oxlu külək turbinlərindən, maneəsiz ərazilərdə isə horizontal külək turbinlərindən istifadə daha məqsədə uyğun hesab edillir[4]. Horizolntal və vertikal tipli külək turbinləri müvafiq olaraq şəkil 3 və şəkil 4 – də verilmişdir.

ƏDƏBIYYAT SIYAHISI:

1. AR ETSN– http://www.eco.gov.az
2. http://www.unece.org/fileadmin/DAM/env/eia/documents/SEA%20Manual/translations/SEA_Resource_Manual_Aze
3. Bangga, G.; Hutani, S.; Heramarwan, H. The Effects of Airfoil Thickness on Dynamic Stall Characteristics of High-Solidity Vertical Axis Wind Turbines. Adv. Theory Simul. 2021, 4, 2000204. [CrossRef]
4. Lee, S.L.; Shin, S. Wind turbine blade optimal design considering multi-parameters and response surface method. Energies 2020, 13, 1639. [CrossRef]
5. Santo, G.; Peeters, M.; Van Paepegem, W.; Degroote, J. Fluid–structure interaction simulations of a wind gust impacting on the blades of a large horizontal axis wind turbine. Energies 2020, 13, 509. [CrossRef]

QAFAROV Qadir Arzu oğlu
Qərbi Kaspi Universitetinin müəllimi
E-mail: qafarov1997@gmail.com

SƏLİMOV İlham Nəsir oğlu fiz.r.ü.f.d.
Qərbi Kaspi Universitetinin müəllimi
E-mail: selimovilham@wcu.edu.az

QƏHRƏMANLI Fərid Urxan oğlu
Azərbaycan Texniki Universitetinin IV kurs tələbəsi

PROTEUS MÜHİTİNDƏ OPTRONLU ƏMƏLİYYAT GÜCLƏNDİRİCİSİNİN TEZLİK XARAKTERİSTİKASININ ÇIXARILMASI

İlkin olaraq LM358 əməliyyat gücləndiricisi üzərində yığılmış differensial optronlu qurğunun amplitud-tezlik xarakteristikası çıxarılmışdır. Sxemin girişinə müxtəlif gərginlik səviyyələrində sinusoidal siqnal tətbiq olunur (şəkil 1).

R(1)1 mənbəyi sinusoidal siqnala sazlanmışdır. Siqnalın amplitud qiyməti 1V, tezliyi isə 10Hs seçilmişdir. Çıxış isə U2(PD2A)-dan götürülmüşdür [1]. Göründüyü kimi əməliyyat gücləndiricisi invers qoşulma sxemi üzrə dövrəyə birləşdirilmişdir. Çıxış siqnalı 2N2222 tipli npn tipli tranzistorun bazasına verilir. Bazaya siqnal verildiyi anda U2 işıq diodu işıqlanır və nəticədə bu şüalar fotodiodlar tərəfindən qəbul edilir. Sxemdə HCNR200 tip optoçütündən istifadə edilmişdir. Optoçütün daxili konfiqurasiyası aşağıdakı şəkildə göstərilmişdir.

Qeyd edək ki, bu tip optoçütün seçilməsində əsas məqsəd onun buraxma qabiliyyətinin yüksək olmasıdır. Bu tip optoçüt MHs diapazonunda işləyir. Yüksək cəldliyə malikdir. Aşağıdakı şəkildə HCNR200 tip optoçütün dəyişən cərəyan dövrəsində əsas spesifik elektrik parametrləri göstərilmişdir (şəkil 1).



Şəkil 1. Xətti optronlu əməliyyat güclədəndiricisi

Sxemin layihələndirilməsində LM358 markalı əməliyyat gücləndiricisindən istifadə edilmişdir. Komparator rejimində işlədiyi üçün bu tip mikrosxemdən istifadə etmək qərarına gəlinmişdir. Bir korpus daxilində iki ədəd eyni xarakteristikalara malik əməliyyat gücləndiricisindən istifadə edilmişdir. Layihələndirmədə bu inteqral sxemdən istifadə etməyimizin əsas səbəbi onun tezlik xarakteristikasının qənaətbəxş olmasıdır.



Şəkil 2. LM358 markalı əməliyyat gücləndiricisi

Sxemin element bazası seçildikdən sonra əməliyyat gücləndiricisinin invers girişinə qoşulmuş R1 rezistoru üzərindən differensial qurğuya giriş siqnalı tətbiq edilir. Gərginliyin səviyyəsi 1V, tezliyi isə 10Hs seçilmişdir. Bu əməliyyatları proteus proqramında giriş siqnal mənbəyi üzərində mausun sol düyməsini iki dəfə klik edərək tənzimləmələri aparmaq mümkündür (şəkil 3).







Şəkil 3. Funksional generatorun parametrlərinin sazlanması	Şəkil 4. "Tezlik xarakteristikası" qrafikinin parametrlərinin sazlanması	Şəkil 5. Differensial qurğunun tezlik xarakteristikasının çıxarılması

Funksional generatorun parametrlərinin sazladıqdan sonra proqram interfeysinin əsas işçi alətlər panelindən "Grap Mode" bölməsindən "FREQUENCY" işçi alətini sahəyə daxil edirik. Bundan sonra tezlik xarakteristikasının qurulması üçün qrafiki panelin parametrlərinin seçilməsi lazımdır (şəkil 4).

İlkin olaraq giriş siqnalını qrafikə daxil etmək lazımdır. Bunun üçün "Reference" xanasına funksional generatorunun mövqe nömrəsini tanıtmaq lazımdır. Yəni, R1(1) mövqeyi qrafiki analizatora qeyd olunur [2]. Daha sonra analizatorun işə başlama və işi sonlandırma tezlik sərhədlərini daxil etmək lazımdır. Tədqiqatda işə başlama tezliyi 10 Hs, işi sonlandırma tezliyinin qiyməti isə 2 MHs götürülmüşdür.

Sxemi işə sazladıqdan sonra simulyasiya başladılmışdır[3]. Nəticədə təklif edilən sxem üzrə differensial qurğunun tezlik xarakteristikası qurulmuşdur.

Tezlik xarakteristikasından göründüyü kimi sxemin sərhəd tezliyi, daha doğrusu buraxılış zolağının qiyməti 100 kHs-ə bərabərdir. Texniki ədəbiyyatlara və aparılmış tədqiqatlara nəzər saldıqda görünür ki, sərhəd tezliyinin bu qiyməti kifayət qədər yüksəkdir [4].

Qeyd etdiyimiz kimi differensial xətti optronlu sxemin təklifi onun optimal tezlik xüsusiyyətlərinə malik olmasıdır [5]. Belə ki, aparılan analiz nəticəsində müəyyən edilmişdir ki, differensial optronlu qurğunun buraxılış zolağının qiyməti 100 kHs-ə bərabərdir. Buraxılış zolağının bu səviyyədə olması kifayyət qədər qaneedicidir.

ƏDƏBİYYAT SİYAHISI:

1. K. J. Raut, R. V. Kshirsagar, A. C. Bhagali, and Ieee, "Low-Voltage High-Gain Folded Architecture Operational Amplifier," (in English), 2016 Conference on Advances in Signal Processing (Casp), Proceedings Paper pp. 160-163, 2016.
2. L. S. Y. Wong, "1.8 V low voltage pseudo-differential input operational amplifier," in 2002 IEEE International Symposium on Circuits and Systems. Proceedings (Cat. No.02CH37353), 2002, vol. 1, pp. I-317-I-320 vol.1.
3. Mammadov A.G., Abaszade R.G., Khanmamedova E.A., Bayramov İ.Y.,Muzaffari Haqiqi D.M. "Optoelectronic information processing devices" Ekoenergetika №3, səh. 23-25., 2021.
4. M. K. Hati and T. K. Bhattacharyya, "A power efficient and constant-g m 1.8 V CMOS operational transconductance amplifier with rail-to-rail input and output ranges for charge pump in phase-locked loop," in Devices, Circuits and Systems (ICDCS), 2012 International Conference on, 2012, pp. 38-43: IEEE.
5. R. S. Assaad and J. Silva-Martinez, "The Recycling Folded Cascode: A General Enhancement of the Folded Cascode Amplifier," IEEE Journal of Solid-State Circuits, vol. 44, no. 9, pp. 2535-2542, 2009.

QAFAROV Qadir Arzu oğlu
Qərbi Kaspi Universitetinin müəllimi

ZÜLFIQAROV Eltun Mahmud oğlu
Qərbi Kaspi Universitetinin IV kurs tələbəsi
E-mail: qafarov1997@gmail.com

ENİNƏ İMPULS MODULYASİYASI VASİTƏSİLƏ MÜHƏRRİKİNİN SÜRƏTİNİN TƏNZİMLƏNMƏSİ

Texnikada müxtəlif növlü sabit cərəyan mühərrikləri mövcuddur. Sabit cərəyan mühərriklərini ətrafımızda hərəkət edən bir çox elektron mexanizmin tərkibində görmək mümkündür. Sabit cərəyan mühərriklərinin qabarit ölçüləri və gücü tətbiq sahəsinə və istifadə məqsədinə görə təsnif olunur.

Sabit cərəyan mühərriklərinin istehsalının iqtisadi səmərəliliyi mühərriklərin tətbiq sahələrini daha da genişlədirmişdir.

Sabit cərəyan mühərriklərin fırlanma sürəti mühərrikə tətbiq edilən gərginliyin qiymətinin dəyişməsindən asılı olaraq dəyişsə də praktikada $9 - 12\ V$ diapazonunda qərarlı rejimdə işləyən sabit cərəyan mühərriklərindən istifadə etdiyimiz üçün arduinonun çıxış gərginliyi sabit cərəyan mühərriklərini təhrik edə bilməyəcəkdir [1].

Sabit cərəyan mühərrikləri əsasən arduinonun çıxış cərəyanından (maksimum çıxış cərəyanı) daha artığını tələb edir. Bu hal isə arduino moduluna zərər yetirə birlmə potensialına sahibdir. Ardunino modulunun zərər görməməsini təmin etmək üçün sabit cərəyan mühərrikini birbaşa arduino moduluna birləşdirmək əvəzinə idarəedici dövrə vasitəsilə əlaqə təmin edilməlidir. Modul maksimal 40-50 mA-lik cərəyan həddində çıxış cərəyanı hasil etdiyi üçün sabit cərəyan mühərriki rele, tranzistor, mosfet, tristor kimi irdəolunan elementlər vasitəsilə idarə olunaraq qərarlı rejim təmin edilməlidir. Praktiklik nöqteyi nəzərindən tranzistorlu idarəetmənin sadəliyi və cəldliyi səbəbilə idarəetmə sxemlərində daha çox istifadə olunduğunu qeyd edə bilərik. Tranzistorun açar (bağlı-açıq vəziyyət) rejimindən faydalanaraq sabit cərəyan mühərrikinin işə qoşulması və qapanmasını tənzimləmək imkanı yaranır. Mühərrikə ötürülən enerjinin açılıb-qapanma müddətini eninə impuls modulyasiyası (PWM) metodundan istifadə edərək mühərrikin sürətini yəni tələb edilən işçi rejimdə işləməsini təmin etmək mümkün olar. Şəkil 1.a)-da xarici qida mənbəyi ilə qidalanan sabit cərəyan mühərrikinin tranzistor ilə idarəetmə dövrəsi göstərilmişdir.



a) b)

Şəkil 1. a) DC motorun tranzistorlu idarəetmə dövrəsi b) Arduinolu dc motorun sürətinin idarə edilməsi.

Sabit cərəyan mühərrikinin tranzistor ilə idarəetmə sxemində bəzi məsələlərə diqqət yetirmək lazımdır:

1. Q1 n-p-n tipli tranzistordur. Məqsədi mühərrikin xarici qida mənbəyi ilə işləməsini təmin etməkdir.
2. 1kOm-luq rezistor cərəyan məhdudlaşdırıcısı olaraq tranzistorun bazasına arduinonun istəlinən girişinə qoşulması üçün istifadə olunur.
3. C1 kondenstoru mühərrikin iş fəaliyyəti zamanı yaranan biləcək maneə siqnallarının aradan qaldırılması məqsədilə sxemə əlavə edilmişdir.
4. D1 diodu isə mühərrikin çıxışlarında meydana gələn əks polyarlı gərginliyin dövrəyə təsirini kompensasiya edilməsi məqsədilə mühərrikə paralel qoşulmuşdur.

Şabit cərəyan mühərriklərini sürətinin idarəetmə proqramı tərtib edilmişdir. Dövrədə istifadə etdiyimiz BC237 tranzistorunun texniki göstəricilər kitabçasına nəzər yetirdikdə I_C (kollektor cərəyanı) 100 mA , I_{mC} yəni pik kollektor cərəyanı isə 200 mA olduğunu görərik. Bu o deməkdir ki, istifadə etdiyimiz sabit cərəyan mühərrikin dövrəsindən axan maksimal cərəyan 100 mA-lik həddi aşmamalıdır, ya da istifadə etdiyimiz sabit cərəyan mühərrikinin tələb etdiyi maksimal cərəyan tranzsitorun parametrlərinə uyğun olmalıdır.

Dövrəni ilk öncə simulyasiya və vizualizasiya proqramlarını tətbiq etməklə elektron mühitdə quraraq analiz etmək lazımdır. Müasir dövrdə ən çox istifadə olunan Proteus 8.0 proqramı vasitəsilə

arduinolu idarəetmə dövrəsinin elektron sxemini qura bilərik. Proqramın üstün cəhətlərindən biri də eyni zamanda arduinonu proqramlama imkanıdır. Digər bir proqram vasitəsilə dövrəmizin real görünüş formasını qura bilərik. Fritzing proqramı qeyd olunan məsələnin həllində olduqca aktiv istifadə olunan vizualizasiya proqramıdır. Bundan sonra sxemi bord üzrərində qurmaq olar.

Kod

```
Const int motorPin=9; // mühərriki idarə edəcək pwm girişidir.
Void setup()
{
pinMode (motorPin,output); // pwm çıxışı olaraq təyin edilir.
}
void loop()
  {
for (int i=0; i<256;i++) //0-255 arasında sayğac təyin olunur.
{
//sayğacın qiyməti mühərriki idarə etmək üçün pwm olaraq tətbiq olunur.
analogWrite (motorPin,i);
delay (10); //10 ms geçikmə ilə
}
delay (2000);   // 2 s geçikmə ilə
for (int i=256; i>0; i--) //255-0 arasında sayğac təyin olunur.
{
//sayğacın qiyməti mühərriki idarə etmək üçün pwm olaraq tətbiq olunur.
analogWrite (motorPin,i);
delay (10); //10 ms geçikmə ilə
}
delay (2000);   // 2 s geçikmə ilə
}
```

Bütün əlaqələr düzgün olub-olmadığını yoxladıqdan sonra kodu arduino modulun yükləmək lazımdır. Proqram yükləndikdən sonra sabit cərəyan mühərrikinin yavaş-yavaş sürətləndiyini və ardınca 2 saniyə gözlədikdən sonra yavaşlayaraq tamamilə stabil vəziyyətə qayıdığını və bu prosesin daimi olaraq təkrarlandığını müşahidə dəcəyik. Bu çür iş rejimini təyin etmək üçün PWM metodundan istifadə edilmişdir. Bunun üçün tranzistoru sürətli açılıb-qapanan açar funksiyasını yerinə yetirən element kimi istifadə olunmuşdur. PWM siqnalının High olduğu müddətcə tranzistor açıq, digər halda isə (yəni Low səviyyə) qapalıdır. PWM çıxışının 0 ilə 255 arasında artırıb-azaltsaq buna paralel olaraq da mühərrikin sürəti artıb-azalacaqdır [2]. Əgər siqnallaşma səviyyələrinə diqqət yetirsək görərik ki, mühərrik dövrəsində maksimal cərəyan cərəyan axdığı anlar, yəni maksimum sürətə çatdığı an PWM siqnalının 100% olduğu müddətlərdir. Bu halda deyə bilər ki, mühərrik tam gücdə işləyir və ən çox cərəyanı məhz bu anda işlədir.

Arduino əsasında layihələndirilən idarəetmə dövrələri günümüzdə bir çox elektron sistemlərdə (demək olar ki, əksərtiyyətində) tətbiq edilir. Məqalədə arduinonun idarəetmə funksiyalarını əyani sübutlarla izah etmək üçün sabit cərəyan mühərrikinin idarəetmə sxemi əsasında qurulmuş arduinolu idarəetmə sxemimi yığılmış və uyğun analizlər aparılmışdır.

ƏDƏBİYYAT SIYAHISI:

1. Santosh Kumar Mallick , Avinash Singh, Ajay Kumar Singh, Hare Ram Kumar "Speed Control of DC Motor Using Arduino" Imperial Journal of Interdisciplinary Research (IJIR). Vol-3, Issue-4, 2017

2. K.S. Varsha , P. SudharshanPalaniappan "Speed and Direction Control of DC Motor using Android Mobile Application" Research Article Volume 7 Issue No.3.2017

Erdal Delebe "Projeler ile Arduino" KodLab yayın. İstanbul. 2017.

MƏMMƏDOVA Kifayət Aslan,
HACIYEVA Leyla Ramis
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

DİNAMİK OBYEKTLƏRİN QEYRİ-SƏLİS PİD TƏNZİMLƏYİCİLƏR ƏSASINDA MODELLƏŞDİRİLMƏSİ

Giriş

Avtomatik tənzimləmə sistemlərində əks əlaqəli tənzimləmə operatorunun formasından və xüsusiyyətindən asılı olaraq sənayedə və texnikada müxtəlif tənzimləmə qanunlarından istifadə edilir[1]. Hər bir konkret obyekt üçün sintez olunmuş optimal idarəetmə qanununu realizə edən tənzimləyicilər konstruktiv cəhətdən çox müxtəlifdir.

PİD tənzimləyicilər proporsional-inteqral-diferensial tənzimləmə qanunlarından istifadə edir. PİD tənzimləyicilər 1910-cu ildə yaradılıb. Ziqler və Nikols tənzimləyicilərin sazlanması üsullarını hazırladılar. Sonra isə 80-ci illərdə mikroprosessorun yaranmasından sonra PİD tənzimləyicilərin inkişafı artan templə baş verdi.

PİD tənzimləyicilər ən çox yayılmış tənzimləyicilər sinfinə aiddir. Hal-hazırda istismarda təxminən 90…95 % PİD tənzimləyicilərdən istifadə olunur. Belə populyar olmasına səbəb istehsalatda sadə qurulması, səlis fəalyyəti, əksəriyyət praktik məsələlərin həlli üçün faydalılığı və aşağı dəyərli olmasıdır[2,3]. PİD tənzimləyicilər arasında 65 % - birkonturlu tənzimləyicilər və 36 %-i isə çoxkonturlu tənzimləyicilərdir.

Əsas mətn

Texniki qurğular şəklində təşkil olunmuş PİD tənzimləyicilər PİD kontroller adlanır. PİD kontroller avtomatik sazlama, siqnalizasiya, özüdiaqnostika, proqramlaşdırma, mərkəzdən (distansion) idarəetmə, sənaye şəbəkələrində konvery işlərinin mümkünlüyü kimi bir sıra xüsusiyyətlərə malikdir

PİD tənzimləyicilər dinamik sistemlərin idarə edilməsində geniş tətbiq sahəsinə malik olub, səs-küy şəraitində və xətalı ölçmə zamanı işqabililiyyətliliyini saxlayır, dəyişkən istehsalat şəraitini sazlayır.

PİD tənzmləyiciləri, qeyri-xətti və mürəkkəb sistemlərin idarə edilməsi zamanı, eləcə də obyekt haqqında kifayət qədər informasiya olmadıqda pis göstəricilərə malik olur. Belə olan halda tənzimləyicinin xarakteristikalarınıqeyri-səlis məntiq üsullarını, genetik alqoritmləri bə neyron şəbəkələri tətbiq etməklə yaxşılaşdırmaq mümkündür. Adları sadalanan üsullar xarici ədəbiyyatlarda "soft computng" adanır. "Hard computing"dən fərli olaraq natamam və qeyri-dəqiq informasiya şəraitində əməliyyat aparmaq imkanlarına malikdir. Bir kontrollerde adları çəkilən üsulların (qeyri-səlis PİD, neyro-PİD, neyro-qeyri-səli PİD, PİD tənzimləyicilərigenetik alqoritmlər) kombinasiyaları tətbiq oluna bilər.

Qeyri-səlis və neyron şəbəkə kontrollerlərin əsas çatışmayan cəhəti onların sazlanmasının (qaydalar bazasının tərtib olunması və neyron şəbəkələrin öyrədilməsinin) mürəkkəb olmasıdır.

Qeyri-səlis idarəetmədən (qeyri-səlis çoxluqlar nəzəriyyəsinin üsulları əsasında idarəetmə) idarəetmə obyekti haqqında qeyri-dəqiq biliklərin olduğu zaman istifadə edilir [4]. Amma onların idarəetmə təcrübəsi, həddən artıq əməktutmlu olan identifikasiya, eləcə də espert bilikləri mövcud olmalıdır.

Nümunə kimi böyük intervallarda ölçülə bilən və çətin identifikasiya olunan daha çox emprik (təcrübəyə əsaslanan) əmsallara malik domna peçi, buxar qazanı və ya rektifikasiya kalonu ola bilər. Bu zaman ixtisaslaşdırılmış operatorlar cihazın göstəricilərindən və qazandıqları təcrübələrindən istifadə edərək belə obyektləri idarə edirlər.

Hal-hazırda qeyri-səlis məntiqli PİD tənzimləyicilərindən idman verilişlərinin translyasiyası zamanı telekameraların tuşlanması zamanı, avtomobil mühərriklərinin idarə edilməsində, tozsoranların, paltaryuyan maşınların, robotların və digər sahələrin mühərriklərinin avtomatik idarə

edilməsi zamanı havanın kondisiyalaşdırma (normaya, standarta uyğunlaşdırılma) sistemlərində istifadə olunur.

Operatordan şifahi alınmış biliklərin PİD tənzimləyicidə tətbqi üçün və 1965-ci ildə L.Zadə tərəfindən yaradılmış qeyri-səlis çoxluqlar nəzəriyyəsinin aparat və linqvisik dəyişənləri tətbiq edilir. Bu nəzəriyyənin əsas ideyası aşağıdkılardır. Əgər qeyri-səlis çoxluqlar nəzəriyyəsində bir neçə element (50 dərəcə temperatur, 100 ton yanacaq, 541 atmosfer təzyiqi və s.) çoxluğa (məsələn, "qaynar su"yun temperaturu çoxluğu, "yanaq" materialları çoxluğu və s.) mənsubdursa və ya ona mənsub deyilsə, onda qeyri-səlis çoxluqlar nəzəriyyəsinə çoxluğun elementinin mənsubluq dərəcəsini xarakterizə edən mənsubiyyət funksiyası anlayışı daxil edilir. Məsələn, "50 dərəcəli temperatur 0.264 mənsubiyyət dərəcəsi ilə T_{qaynar} çoxluğuna mənsubdur". Mənsubiyyət funksiyası verilmiş elementin çoxluğa mənsubluğunu təxminən ehtimal edir. Lakin bele interpretsiya mühəndislər üçün aydın olur[5,6]. Qeyri-səlis çoxluqlar nəzəriyyəsi ehtimal anlayışından istifadə etmədiyi üçün o, ciddi riyaziyyat deyil.

1974-cü ildə Mamdani dinamik obyektlərdə idarəetmə sistemlərinin qurulması üçün qeyri-səlis məntqin tətbiqi mümkünlüyünü göstərdi. Bir ildən sonra Mamdani və Assilian tərəfindən Pİ tənzimləyicilər və onların buxar generatorunun idarə edilməsində tətbiqi ilə bağlı məqalə dərc olundu [ ]. Qeyri-səlis tənzimləyicilərin tətbiq oblastları bu günə qədər daim genişləndirilir və onların stukturunun müxtəlifliyi, yerinə yetirdikləri funksiyalar çoxaldılır (şəkil 1,2).



Şəkil 1. Qeyri-səlis PD tənzimləyicinin strukturu



Şəkil 2. e dəyişəninin dəyişmə oblastının üçbucaq formalı NL,NM,NS,PS, PM,PL çoxluqlara bölünməsi

PID tənzimləyicilərdə qeyri-səlis məntiq əsasən iki yolla istifadə olunur: tənzimləyicinin özünün qurulması üçün və PID tənzimləyicinin əmsallarının sazlanmasının təşkili üçün. Hər iki üsuldan eyni zamanda istifadə oluna bilər.

Qeyri-səlis məntiqin ən geniş yayılmış strukturu (qeyri-səlis PID tənzimləyici) şəkil 1, 3-də təsvir olunur.

Tənzimləyicinin girişinə $\frac{de}{dt}$ törəməsinin hesablanmasında istifadə edilən e xətası daxil edilir. Hər iki kəmiyyət əvvəlcə fazifikasiya (fuzzy ingilis sözü olub qeyri-səlis deməkdir) olunur, sonra obyektdə idarəedici təsirin alınması üçün hesablanmış qeyri-səlis dəyişənlər qeyri-səlis məntiqi

çıxarış blokunda istifadə olunur [7]. Tənzimləyicinin çıxışında yaranan u idarəedici təsiri qeyri-səlis dəyişənləri səlis formada təsvir etmək üçün defazifikasiya blokuna daxil olur.

Qeyri-səlis PID tənzimləyicilərinin qurulması prinsipləri

Qeyri-səlis məntiq üsullarını tətbiq etmək üçün hər şeydən əvvəl adi səlis dəyişənləri qeyri-səlis kimi ifadə etmək lazımdır [8]. Fazifikasiya prosesi şəkil 12-də təsvir olunur.

e xətasının dəyişmə diapazonu NB, NM, NS, Z, PS, PM, PB altçoxluqlarına bölünür və hər bir çoxluqdan olan e xətası üçün mənsubiyyət funksiyası yaradılır. Şəkil 1,2-də təsvir olunan mənsubiyyət funksiyası nisbətən geniş yayılmış üçbucaq formalıdır.

Çoxluqların sayı ixtiyari ola bilər. Qeyri-səlis çoxluqlar üçün ümumi qəbul edilmiş işarələmə mövcuddur: N – mənfi (Negative), Z – sıfır (Zero), P – müsbət (Positive); bu işarələmələrə S (Small –kiçik), M (Medium –orta), B (Big – böyük) hərfləri əlavə edilir. Məsələn, NL – mənfi böyük, NM – mənfi orta, PL – müsbət böyük və s.dəyişənlərin sayı istənilən qədər ola bilər, lakin, onların sayının artırılması giriş dəyişənlərinin bütün kombinasiyaları üçün qaydaları formalaşdıran ekspert təcrübəsinə tələblərin artmasına müvafiqdir.

Əgər qeyri-səlis tənzimləyicinin çıxışında e xətası (şəkil 1,3) e_1 xətasına bərabərdirsə, onda mənsubiyyət dərəcəsi $\mu(e_1) = 0.82$-yə bərabər olan PS altçoxluğunun qeyri-səlis dəyişəninin müvafiq qiyməti PS-ə bərabər olacaq və ya $\mu(e_1) = 0.18$ bərabər olan PS altçoxluğunun qeyri-səlis dəyişəninin müvafiq qiyməti PS-ə bərabər olacaq.

Bu halda e_1 xətası şəkli dəyişdirilmiş qeyri-səlis dəyişən olacaqdır[9,10]. Qeyri-səlis dəyişənlər üzərində tənzimləmə funksiyasının yerinə yetirilməsi üçün mühakimələr operatoru əsasında qurulmuş, qeyri-səlis qaydalar şəklində formalaşdırılmış əməliyyatlar yerinə yetirilməlidir. Qeyri-səlis qaydalardan və qeyri-səlis dəyişənlərdən qeyri-səlis məntiqi çıxarışın (şəkil 1) həyata keçirilməsi üçün istifadə olunur və nəticəsi idarəedici təsir kimi idarəetmə obyektinə verilir.

Qeyri-səlis çıxarış aşağıdakı şəkildə yerinə yetirilir [11]. Fərz edək ki, e xətasının dəyişmə oblastı N,Z,P çoxluqlarına, $\tilde{u}$ idarəedici təsirin dəyişmə oblastı isə NL, NM, Z, PM, PL çoxluqlarına bölünür və ekspertin köməyi ilə tənzimləyicinin işi aşağıdakı qaydalarla formalaşdırılır:

Qayda 1: Əgər $e = N$ və de/dt = P, onda $\tilde{u} = Z$,
Qayda 2: əgər $e = N$ və de/dt = Z, onda $\tilde{u} = NM$,
Qayda 3: əgər $e = N$ və de/dt = N, onda $\tilde{u} = NL$,
Qayda 4: əgər $e = Z$ və de/dt = P, onda $\tilde{u} = PM$,
Qayda 5: əgər $e = Z$ və de/dt = Z, onda $\tilde{u} = Z$, (1)
Qayda 6: əgər $e = Z$ və de/dt = N, onda $\tilde{u} = NM$,
Qayda 7: əgər $e = P$ və de/dt = P, onda $\tilde{u} = PL$,
Qayda 8: əgər $e = P$ və de/dt = Z, onda $\tilde{u} = PM$,
Qayda 9: əgər $e = P$ və de/dt = N, onda $\tilde{u} = Z$.

Yuxarıdakı qaydalar çoxluğu əksər hallarda daha kompakt şəkildə - cədvəl formasında yazılır (cədvəl 1.).

Cədvəl 1.

$\frac{de}{dt}$ e	P	Z	N
N	Z	NM	NL
Z	PM	Z	NM
P	PL	PM	Z

Qaydalardan istifadə edərək qeyri-səlis tənzimləyicinin çıxışında $\tilde{u}$-qeyri-səlis idarəedici təsiri almaq olar. Bundan ötrü $\tilde{u}$ dəyişəninin mənsubiyyət funksiyasını tapmaq lazımdır.

